Nexia EA

# BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO MALİYYƏ AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**

31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə

**BANK OLMAYAN KREDİT TƏŞKİLATI
"VİATOR MİKRO MALİYYƏ AZƏRBAYCAN"
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**

31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə

## BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO MALİYYƏ AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı rəhbərliyin məsuliyyəti haqqında bəyanat | 1 |
| Müstəqil auditorların rəyi | 2-3 |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 4 |
| Maliyyə vəziyyəti haqqında hesabat | 5 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7 |
| Maliyyə hesabatları üzrə qeydlər: | |
| 1. Giriş | 8 |
| 2. Əsas mühasibat uçotu prinsipləri | 8 |
| 3. Mühüm mühasibat təxminləri və təxmin edilən qeyri-müəyyənliklərin əsas mənbələri | 17 |
| 4. Dərc olunmuş, lakin hazırda qəbul olunmamış standartlar | 18 |
| 5. İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalar | 19 |
| 6. Ümumi və inzibati xərclər | 19 |
| 7. Mənfəət vergisi | 19 |
| 8. Pul vəsaitləri və onlarin ekvivalentləri | 21 |
| 9. Müştərilərə verilmiş kreditlər | 21 |
| 10. Əmlak və avadanlıqlar | 25 |
| 11. Digər aktivlər | 26 |
| 12. Borc alınmış vəsaitlər | 26 |
| 13. Digər öhdəliklər | 27 |
| 14. Nizamnamə kapitalı | 27 |
| 15. Digər gəlirlər | 27 |
| 16. Təəhhüdlər və şərti öhdəliklər | 27 |
| 17. Əlaqəli tərəflərlə bağlı əməliyyatlar | 28 |
| 18. Kapitalın idarə olunması | 29 |
| 19. Maliyyə alətlərinin ədalətli dəyəri | 29 |
| 20. Risklərin idarə edilməsi siyasəti | 30 |
| 21. Hesabat dövründən sonra baş vermiş hadisələr | 38 |

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA BƏYANAT**

**31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**

Bu bəyannamə Bank olmayan Kredit Təşkilatı "Viator Mikro Maliyyə Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə bağlı Cəmiyyət rəhbərliyinin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS əsasında hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 24 aprel 2020-ci il tarixində Cəmiyyətin İdarə Heyəti tərəfindən təsdiq edilmişdir.

**İdarə Heyəti adından:**

**Aynur Əliyeva**
**İcraçı direktor**

24 aprel 2020-ci il
Gəncə, Azərbaycan Respublikası

**Ruslan Qarayev**
**Maliyyə meneceri**

24 aprel 2020-ci il
Gəncə, Azərbaycan Respublikası

**MÜSTƏQİL AUDİTORLARIN RƏYİ**

Bank olmayan Kredit Təşkilatı "Viator Mikro Maliyyə Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin Təsisçilərinə və İdarə Heyətinə:

***Rəy***

Biz Bank olmayan Kredit Təşkilatı "Viator Mikro Maliyyə Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin ("Cəmiyyət") 31 dekabr 2019-cu il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından ədalətli əks etdirir.

***Rəy üçün Əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS (Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin mövcud olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanma prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

*Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti*

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlikdə əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.

- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər çərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən edilmiş uçot təxminlərinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk.

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında qənaətə gəldiyimiz halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqəti cəlb etməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın təqdim edilməsi tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

24 aprel 2020-ci il
Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası "NEXIA EA" QSC
NEXIA EA
"NEXIA EA" CJSC Azerbaijan Republic

Nexia EA

**BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO MALİYYƏ AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT**

**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT 31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**

*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2019-cu il tarixində bitən il üzrə | 31 dekabr 2018-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz gəlirləri | | 1,319,281 | 1,440,094 |
| Faiz xərcləri | | (21,819) | (19,564) |
| **Faiz gətirən aktivlər üzrə ehtimal edilən zərər üçün ehtiyatlar təmin olunmamışdan əvvəl xalis faiz gəliri** | | **1,297,462** | **1,420,530** |
| Faiz gətirən aktivlər üzrə ehtimal edilən zərər üçün ehtiyatların bərpası | | 2,015,788 | 711,138 |
| **Xalis faiz gəlirləri** | | **3,313,250** | **2,131,668** |
| İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalar | 5 | (892,345) | (887,061) |
| Ümumi və inzibati xərclər | 6 | (334,869) | (367,921) |
| Xarici valyuta əməliyyatları üzrə (zərər)/gəlir | | (986) | 88 |
| Digər gəlirlər, xalis | 15 | 1,102,490 | 25,780 |
| Digər daxilolmalar/(xərclər) | | 185,985 | (241,839) |
| **Mənfəət vergisindən əvvəl gəlir** | | **3,373,525** | **660,715** |
| Mənfəət vergisi xərci | 7 | (26,439) | (128,906) |
| **İl üzrə xalis mənfəət** | | **3,347,086** | **531,809** |
| **İl üzrə digər məcmu gəlir, vergilər çıxılmaqla** | | - | - |
| **İL ÜZRƏ CƏMİ MƏCMU MƏNFƏƏT** | | **3,347,086** | **531,809** |

**İdarə Heyəti adından:**

**Aynur Əliyeva**
**İcraçı direktor**

24 aprel 2020-ci il
Gəncə, Azərbaycan Respublikası

**Ruslan Qarayev**
**Maliyyə meneceri**

24 aprel 2020-ci il
Gəncə, Azərbaycan Respublikası

8-38-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

**BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO MALİYYƏ AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT**

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2019- CU İL TARİXİNƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 1,112,377 | 241,497 |
| Müştərilərə verilmiş kreditlər | 9 | 5,594,706 | 4,050,309 |
| Əmlak və avadanlıqlar | 10 | 350,639 | 469,321 |
| Satış üçün saxlanılan aktiv | | 73,800 | 3,000 |
| Təxirə salınmış vergi aktivi | 7 | 32,333 | 24,588 |
| Digər aktivlər | 11 | 98,870 | 90,051 |
| **CƏMİ AKTİVLƏR** | | **7,262,725** | **4,878,766** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| Borc alınmış vəsaitlər | 12 | 3,001,344 | 3,963,143 |
| Digər öhdəliklər | 13 | 11,628 | 12,956 |
| **Cəmi öhdəliklər** | | **3,012,972** | **3,976,099** |
| **KAPİTAL:** | | | |
| Nizamnamə kapitalı | 14 | 693,774 | 693,774 |
| Yenidən qiymətləndirmə nəticəsində yaranmış artım | | 146,280 | 179,254 |
| Bölüşdürülməmiş mənfəət | | 3,409,699 | 29,639 |
| **Cəmi kapital** | | **4,249,753** | **902,667** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **7,262,725** | **4,878,766** |

**İdarə Heyəti adından:**

**Aynur Əliyeva**
**İcraçı direktor**

24 aprel 2020-ci il
Gəncə, Azərbaycan Respublikası

**Ruslan Qarayev**
**Maliyyə meneceri**

24 aprel 2020-ci il
Gəncə, Azərbaycan Respublikası

8-38-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

**BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRÓ MALİYYƏ AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT**

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2019-CU İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Nizamnamə kapitalı | Yenidən qiymətləndirmə nəticəsində yaranmış artım | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2018-ci il** | **693,774** | **196,432** | **(519,348)** | **370,858** |
| İl üzrə xalis zərər | - | - | 531,809 | **531,809** |
| Yenidən qiymətləndirmə nəticəsində yaranmış artımın amortizasiyası | - | (17,178) | 17,178 | - |
| **31 dekabr 2018-ci il** | **693,774** | **179,254** | **29,639** | **902,667** |
| İl üzrə xalis zərər | | | 3,347,086 | **3,347,086** |
| Yenidən qiymətləndirmə nəticəsində yaranmış artımın amortizasiyası | | (32,974) | 32,974 | - |
| **31 dekabr 2019-cu il** | **693,774** | **146,280** | **3,409,699** | **4,249,753** |

**İdarə Heyəti adından:**

**Aynur Əliyeva**
**İcraçı direktor**

24 aprel 2020-ci il
Gəncə, Azərbaycan Respublikası

**Ruslan Qarayev**
**Maliyyə meneceri**

24 aprel 2020-ci il
Gəncə, Azərbaycan Respublikası

8-38-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO MALİYYƏ AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2019-CU İL TARİXİNDƏ BİTMİŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2019-cu il tarixində bitən il üzrə | 31 dekabr 2018-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Alınmış faizlər | | 1,317,776 | 1,675,373 |
| Ödənilmiş faizlər | | (14,786) | (24,251) |
| Müştərilərdən toplanmış kreditlər, xalis | | 472,896 | 229,590 |
| Əməkdaşlara və təchizatçılara ödənişlər | | (1,206,291) | (1,233,404) |
| Ödənilmiş vergilər | | (30,000) | 34,189 |
| Digər daxilolmalar çıxılsın digər ödəmələr | | 1,105,682 | 82,433 |
| **Əməliyyat fəaliyyətindən daxil olmuş xalis pul vəsaitləri** | | **1,645,277** | **763,930** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Əmlak və avadanlıqlar üzrə ödənişlər | | (5,170) | (15,430) |
| Əmlak və avadanlıqlar üçün alınmış məbləğlər | | 6,674 | - |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **1,504** | **(15,430)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Borcların ödənilməsi | | (774,915) | (582,817) |
| **Maliyyələşdirmə fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(774,915)** | **(582,817)** |
| Məzənnə fərqinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | (986) | 88 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM** | | **870,880** | **165,771** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*** | 8 | **241,497** | **75,726** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*** | 8 | **1,112,377** | **241,497** |

**İdarə Heyəti adından:**

**Aynur Əliyeva**
**İcraçı direktor**

24 aprel 2020-ci il
Gəncə, Azərbaycan Respublikası

**Ruslan Qarayev**
**Maliyyə meneceri**

24 aprel 2020-ci il
Gəncə, Azərbaycan Respublikası

8-38-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## 1. GİRİŞ

### Cəmiyyət və onun əsas fəaliyyəti

"Viator Mikromaliyyə Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyəti (Cəmiyyət) Bank olmayan Kredit Təşkilatıdır. Cəmiyyət 30 dekabr 2002-ci il tarixində VÖEN 1400163551 qeydiyyat nömrəsi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin, Bakı şəhər Vergilər Departamentində qeydiyyatdan keçmişdir.

Cəmiyyət, Azərbaycan Respublikası Mərkəzi Bankı ("ARMB") tərəfindən tənzimlənir və 136-QB saylı xüsusi lisenziya nömrəsi əsasında öz fəaliyyətini davam etdirir. Cəmiyyət əsasən kreditlərin verilməsi üzrə fəaliyyət göstərir. Mövcud lisenziya əsasında Cəmiyyətin girov qismində əmanətlər almaq hüququ yoxdur. Cəmiyyətin baş ofisi Azərbaycan Respublikasının Gəncə şəhərində yerləşir.

31 dekabr 2019-cu il tarixində Cəmiyyətin 5 filialı fəaliyyət göstərmiş (31 dekabr 2018: 6) və işçilərin orta sayı 65 olmuşdur (2018: 69).

### Cəmiyyətin hüquqi ünvanı və fəaliyyət göstərdiyi yer

Cəmiyyətin hüquqi ünvanı Bəşir Səfiroğlu küçəsi 133, Bakı, Azərbaycan Respublikasıdır. Cəmiyyətin baş ofisi isə N. Nərimanov prospekti 132, Gəncə, Azərbaycan Respublikası ünvanında yerləşir.

### Cəmiyyətin əməliyyat mühiti

Cəmiyyətin fəaliyyəti əsasən Azərbaycan Respublikasının ərazisində yerləşir. Beləliklə, Cəmiyyət inkişafda olan bazar iqtisadiyyatının xüsusiyyətləri ilə səciyyələnən Azərbaycanın iqtisadi və maliyyə bazarlarında fəaliyyətlə bağlı risklərə məruz qalır. Hüquqi, vergi və normativ baza və rejimlərin inkişafı davam edir, lakin onların müddəalarının həm fərqli şərh olunması, həm də tez-tez dəyişdirilməsi müşahidə olunur. Bütün bunların və sair hüquqi və vergi maneələri nəticəsində Azərbaycanda fəaliyyət göstərən müəssisələr müxtəlif çətinliklərlə üzləşirlər. Bununla yanaşı, Azərbaycan manatının son zamanlarda kəskin ucuzlaşması və dünya bazarında neftin qiymətinin davamlı şəkildə aşağı olması biznes mühitində qeyri-müəyyənlik səviyyəsini artırmışdır.

Maliyyə hesabatlarında Azərbaycandakı biznes mühitinin Cəmiyyətin fəaliyyətinə və maliyyə vəziyyətinə təsiri Cəmiyyət rəhbərliyi tərəfindən qiymətləndirilir. Gələcəkdə biznes mühiti rəhbərliyin cari qiymətləndirməsindən fərqlənə bilər.

## 2. ƏSAS MÜHASİBAT UÇOTU PRİNSİPLƏRİ

### Hesabatların uyğunluğunun bəyanı

Cəmiyyətin hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatları Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

### Fasiləsizlik prinsipi

Bu maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərməsini və yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

### Təqdimatın digər əsasları

Bu maliyyə hesabatları əksi göstərilmədiyi hallarda Azərbaycan manatı ("AZN") ilə təqdim edilmişdir. Bu maliyyə hesabatları, müəyyən maliyyə alətlərinin ədalətli dəyərinin və MHBS əsasında yenidən qiymətləndirilmiş məbləğdə binaların ölçülməsi istisna olmaqla tarixi dəyər prinsiplərinə əsasən hazırlanmışdır.

Cəmiyyət mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Bu maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və MHBS-ə uyğunlaşdırılmaq məqsədilə hesabatlara düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin

müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləşdirilmələr aiddir.

Əsas mühasibat prinsipləri üzrə xülasə aşağıda təqdim edilir:

**Faiz gəlir və xərclərinin tanınması**

Faiz gəlir və xərcləri effektiv faiz metodundan istifadə etməklə hesablama üsuluna əsasən qeydə alınır. Effektiv faiz metodu, maliyyə aktivlərinin və ya öhdəliklərinin (eləcə də maliyyə aktivləri və ya öhdəlikləri qrupunun) amortizasiya edilmiş maya dəyərinin hesablanmasını, faiz gəlir və xərclərinin müvafiq dövrlər üzrə tanınmasını nəzərdə tutur.

Effektiv faiz dərəcəsi maliyyə alətinin təxmin edilmiş istifadə müddəti üzrə təxmin edilən gələcək ödəniləcək və ya alınacaq vəsaitləri (o cümlədən effektiv faiz dərəcəsinin tərkib hissəsi sayılan müvafiq ödənilmiş və ya alınmış haqq və komissiyalar, əməliyyat xərcləri, eləcə də digər diskont və mükafatlar) və ya müvafiq olduqda daha qısa müddət üzrə maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin qalıq dəyərini dəqiq diskontlaşdıran dərəcədir.

Köhnəlmə nəticəsində maliyyə aktivi hesabdan silinirsə (qismən silinirsə), belə aktivlər üzrə faiz gəliri sonradan mümkün zərərlərin qiymətləndirilməsi üçün istifadə edilmiş effektiv faiz dərəcəsi nəzərə alınmaqla gələcək pul vəsaitləri hərəkətinin diskontlaşdırılması üzrə istifadə edilən faiz dərəcəsinin tətbiq edilməsi ilə tanınır.

Aktivlərin ədalətli dəyəri üzrə qazanılmış faizlər, faiz gəlirləri kimi təsnifləşdirilir.

**Maliyyə alətləri**

Cəmiyyət müqaviləyə əsasən maliyyə aləti üzrə öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyə aktivini və ya öhdəliyini maliyyə vəziyyəti hesabatında tanıyır. Maliyyə aktivlərinin və öhdəliklərinin adi yolla alınması və satılması zamanı hesablaşma tarixində əməliyyat müvafiq olaraq tanınır.

Maliyyə aktivləri və öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə ölçülür. İlkin tanınma zamanı, maliyyə aktivləri və öhdəliklərinin satın alınması və ya yerləşdirilməsi ilə bağlı bütün birbaşa əməliyyat xərcləri (mənfəət və ya zərərdə tanınan maliyyə aktiv və öhdəlikləri istisna olmaqla) müvafiq olaraq maliyyə aktivinin ədalətli dəyərindən azaldılır və ya maliyyə öhdəliyinin ədalətli dəyərinə əlavə edilir.

Mənfəət və zərər hesabına tanınan maliyyə aktiv və öhdəliklərinin satın alınması və ya yerləşdirilməsi ilə bağlı birbaşa əməliyyat xərcləri dərhal mənfəət və zərər hesablarında tanınır.

***9 saylı MHBS maliyyə alətləri***

9 saylı MHBS-nın tətbiqi nəticəsində, Cəmiyyət, mənfəət və ya zərər və digər məcmu gəlir hesabatında effektiv faiz dərəcəsi metodu ilə hesablanmış faiz gəliri üzrə gəlirlərin ayrıca təqdim edilməsini tələb edən "Maliyyə Hesabatlarının Təqdimatı" adlı 1 saylı MUBS-na düzəliş etmişdir. Daha əvvəl Cəmiyyət, bu məbləği maliyyə hesabatlarına qeydlərdə açıqlamışdır. Bundan əlavə, Cəmiyyət, 2018-ci ilə aid Qeydlərdə göstərilən, lakin müqayisəli məlumatlara tətbiq edilməyən "Maliyyə alətləri: Açıqlamalar" adlı 7 saylı MHBS-na düzəlişlər etmişdir.

9 saylı MHBS 1 yanvar 2018-ci il tarixində və ya bu tarixdən sonrakı illik dövrlər üçün 39 saylı "Maliyyə alətləri: tanınma və qiymətləndirmə" adlı MHBS-ni əvəz edir. Cəmiyyət 2017-ci il üzrə 9 saylı MHBS-nin əhatə dairəsinə daxil olan maliyyə alətləri üçün müqayisəli məlumatı yenidən təqdim etməmişdir. Buna görə 2017-ci il üzrə müqayisəli məlumatlar 39 saylı MUBS əsasında təqdim edilir və 2018-ci il üzrə təqdim edilən məlumatlarla müqayisə edilmir. 9 saylı MHBS-nin qəbul edilməsindən əmələ gələn fərqlər birbaşa 1 yanvar 2018-ci il tarixinə bölüşdürülməmiş mənfəətdə tanınmışdır və aşağıda açıqlanır.

*(a) Təsnifləşdirmə və qiymətləndirmə*

9 saylı MHBS-yə əsasən " yalnız əsas məbləğin və faizin ödənilməsi" (YƏMFÖ) meyarının uyğun gəlməyən bütün borc maliyyə aktivləri ilkin tanınma zamanı mənfəət və ya zərərdə ədalətli dəyərlə ölçülən aktivlər (MZƏD) kimi təsnifləşdirilir. Bu meyara uyğun olaraq, " əsas kreditləşmə sazişi"nə uyğun olmayan

borc alətləri, məsələn, əlaqədar konvertasiya opsionları və ya " reqress hüququ olmayan" kreditlər kimi alətlər MZƏD ilə ölçülür. YƏMFÖ meyarına cavab verən borc maliyyə aktivləri üçün, ilkin tanınmada təsnifat bu alətlərin idarə olunduğu biznes modelinə əsasən müəyyən edilir:

- " yığılmaq üçün saxlanılan" əsasda idarə olunan alətlər amortizasiya olunmuş dəyərlə ölçülür;
- "yığılmaq və satış üçün saxlanılan "əsasda idarə olunan alətlər digər ümumi gəlirdə ədalətli dəyərdə ölçülür (DÜGƏD);
- Ticarət maliyyə aktivləri daxil olmaqla digər əsaslarla idarə olunan alətlər MZƏD ilə ölçülür.

Alətin DÜGƏD kimi təsnifləşdirilməsi yekun olaraq təyin edildiyi hallar istisna olmaqla, kapital maliyyə aktivləri ilkin tanınmada MZƏD ilə ölçülən alət kimi təsnifləş dirilməlidir. DÜGƏD kimi təsnif edilən kapital investisiyaları üçün dividend gəliri istisna olmaqla, bütün realizasiya edilmiş və realizasiya edilməmiş gəlir və zərərlər, sonrakı dövrlərdə mənfəət və ya zərərə təsnifləşdirilməyərək, digər ümumi gəlirdə tanınır.

Maliyyə öhdəliklərinin təsnifatı və ölçülərinin 39 saylı MUBS-un tələbləri ilə müqayisədə əsas etibarı ilə dəyişməz olaraq qalır. Törəmə alətlər MZƏD ilə ölçülməkdə davam edəcəkdir. Əlaqədar törəmə alətlər artıq əsas maliyyə aktivindən ayrılmır.

*(b) Dəyərsizləşmə*

9 saylı MHBS-nin tətbiqi Cəmiyyətin maliyyə aktivləri üzrə dəyərsizləşmə zərərlərin uçot qaydasını tamamilə dəyişmişdir, belə ki, 9 saylı MHBS-un çəkilmiş zərərlər əsasında yanaşması qabaqcadan gözlənilən kredit zərəri yanaşması (GKZ) ilə əvəz edilmişdir. 1 yanvar 2018-ci il tarixindən etibarən Cəmiyyət kredit öhdəlikləri və maliyyə zəmanətləri müqavilələri ilə birlikdə MZƏD ilə ölçülməyən bütün kreditlər və digər borc maliyyə aktivləri ( bu bölmədə hamısı "maliyyə alətləri" adlandırılır) üçün gözlənilən kredit zərərləri üçün ehtiyatı uçota alır. Kapital alətləri üzrə 9 saylı MHBS əsasında dəyərsizləşmə hesablanmır.

*(c) 9 saylı MHBS-nın tətbiqinin təsiri*

Aşağıdakı cədvəllərdə 9 saylı MHBS-nın qəbul edilməsin 1 yanvar 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabata və bölüşdürülməmiş mənfəətə təsiri, o cümlədən 39 saylı MUBS əsasında çəkilmiş kredit zərərin hesablanması qaydasının 9 saylı MHBS ilə nəzərdə tutulmuş GKZ ilə əvəz edilməsinin təsiri əks etdirir.

39 saylı MUBS əsasında balans dəyərinin 1 yanvar 2018-ci il tarixinə 9 saylı MHBS əsasında qeydə alınmış qalıqlarla üzləşdirilməsi aşağıdakı cədvəldə təqdim edilir:

| | **39 saylı MUBS əsasında ölçmə** | | **Yenidən təsnifləşdirmə** | **Yenidən hesablama** | | | **9 saylı MHBS** |
|---|---|---|---|---|---|---|---|
| | **Sinif** | **Məbləğ** | | **GKZ** | **Digər** | **Məbləğ** | **Sinif** |
| **Maliyyə aktivləri** | | | | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | Amortizasiya edilmiş dəyər | 241,497 | - | - | - | 241,497 | Amortizasiya edilmiş dəyər |
| Müştərilə verilmiş kreditlər | Amortizasiya edilmiş dəyər | 4,404,088 | - | (304,675) | - | 4,099,413 | Amortizasiya edilmiş dəyər |

| **Bölüşdürülməmiş mənfəət** | |
|---|---|
| 39 saylı MUBS əsasında yekun qalıq (31 dekabr 2017) | (214,673) |
| 9 saylı MHBS GKZ tanınması | (304,675) |
| **9 saylı MHBS əsasında yekun qalıq (1 yanvar 2018)** | **(519,348)** |
| **9 saylı MHBS əsasında kapitala dəyişiklik haqqında hesabat** | **(304,675)** |

Aşağıdakı cədvəldə 39 saylı MUBS əsasında məcmu ilkin kredit zərəri üçün ehtiyat və 39 saylı "Ehtiyatlar, potensial öhdəliklər və potensial aktivlər" adlı MUBS əsasında kredit öhdəlikləri və maliyyə zəmanət müqavilələri 9 saylı MHBS əsasında GKZ ehtiyatları ilə üzləşdirilir.

| | 31 dekabr 2017-ci il tarixinə 39 saylı MUBS/ 37 saylı MUBS əsasında kredit zərəri üçün ehtiyat | Yenidən hesablama | 1 yanvar 2018-ci il tarixinə 9 saylı MHBS əsasında GKZ |
|---|---|---|---|
| **Aşağıdakılar üçün dəyərsizləşmə metodu ehtiyat** | | | |
| Amortizasiya hesablanmış dəyərlə müştərilərə verilmiş kreditlər | (4,502,915) | (304,675) | (4,807,590) |
| **Öhdəliklər və şərti aktivlər** | **(4,502,915)** | **(304,675)** | **(4,807,590)** |

***Verilmiş kreditlər və debitor borcları***

Verilmiş kreditlər və debitor borcları, maliyyə hesabatlarının digər kateqoriyaları üzrə təsnifləşdirilən aktivlərdən fərqli olaraq sabit və ya müəyyən edilən ödənişli və fəal bazara çıxarılmayan qeyri-törəmə aktivlərdir. Bu aktivlərə vəsait qoyularkən məqsəd dərhal və ya qısa müddət ərzində onların satılması deyil və bu aktivlər nə ticarət məqsədləri ilə saxlanılan maliyyə aktivlərinə, nə də satılabilən maliyyə aktivləri kateqoriyalarına aid edilmir. Bu tip aktivlər effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş maya dəyəri ilə qeydə alınır.

Kreditlərin və debitor borclarının tanınmasına xitam verilməsi, onların dəyərində ehtimal edilən azalmalar yaranması, eləcə də onların dəyərsizləşməsi nəticəsində yaranan mənfəət və zərərlər müvafiq olaraq mənfəət və zərər hesablarında tanınır.

**Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər ölçmə tarixində əsas bazarda və ya əsas bazar olmadıqda həmin tarixdə Cəmiyyətin daxil ola biləcəyi daha sərfəli bazarda bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq üçün qəbul edilmiş və ya öhdəliyi köçürmək üçün ödəniləcək qiymətdir. Öhdəliyin ədalətli dəyəri onun yerinə yetirilməmə riskini əks etdirir.

Mümkün olduqda, Cəmiyyət fəal bazarda həmin alət üçün elan olunmuş qiymətlər üzrə alətin ədalətli dəyərini ölçür. Bazar, qiymətləndirmə məlumatlarını təmin etmək üçün aktivlər və ya öhdəliklər üzrə əməliyyatlar davamlı olaraq kifayət qədər tezlikdə və həcmdə baş verdikdə fəal hesab olunur.

Fəal bazarda təyin edilmiş qiymət olmadıqda Cəmiyyət, müşahidə edilə bilən müvafiq məlumatların istifadəsini artıran və müşahidə edilə bilməyən məlumatların istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir. Seçilmiş qiymətləndirmə üsulu, bazar iştirakçıları əməliyyata qiymət təyin edərkən nəzərə aldıqları bütün amilləri özündə birləşdirir.

Ədalətli dəyəri ölçülən və maliyyə hesabatlarında açıqlanmış bütün aktivlər və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara əsaslanmış ədalətli dəyər iyerarxiyasında təsnifləşdirilir:

- Səviyyə 1 – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- Səviyyə 2 – aktiv və ya öhdəlik üçün birbaşa və ya dolayısı ilə müşahidə edilə bilən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir;
- Səviyyə 3 – aktiv və ya öhdəlik üçün müşahidə edilə bilməyən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir;

Maliyyə hesabatlarında dövrü əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Cəmiyyət hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada Səviyyələr arasında köçürmələrin olub-olmamasını müəyyən edir.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri onların asanlıqla müəyyən nağd pul məbləğinə çevrilə bilən və dəyəri cüzi dəyişikliklərə məruz qalan vəsaitlərdir. Bloklaşdırılmış məbləğlər pul vəsaitləri və onların ekvivalentlərindən çıxarılır. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş maya dəyərində qeydə alınır.

**Müştərilərə verilmiş kreditlər**

Müştərilərə verilmiş kreditlər maliyyə hesabatlarının digər kateqoriyaları üzrə təsnifləşdirilən aktivlərdən fərqli olaraq sabit və ya müəyyən ödəniş qrafikinə malik və fəal bazara çıxarılmayan qeyri-törəmə aktivlərdir.

Cəmiyyət tərəfindən verilmiş kreditlər ilk olaraq ədalətli dəyər və əməliyyat üzrə aid olduğu xərclər həcmində tanınır. Hesablanmış ədalətli dəyər kreditin ədalətli dəyərinə bərabər olmadıqda, misal üçün, kredit bazar qiymətindən aşağı dəyərlə verildikdə hesablanmış ədalətli dəyərlə kreditin ədalətli dəyəri arasındakı fərq kreditin ilkin tanınması üzrə zərər kimi qeydə alınır və bu zərərin xüsusiyyətinə uyğun olaraq mənfəət və ya zərər və digər məcmu gəlir hesabatına daxil edilir. Daha sonra, kreditlər effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş maya dəyəri ilə qeydə alınır. Müştərilərə verilmiş kreditlər ehtimal edilən zərərlər üzrə bütün ehtiyatlar çıxılmaqla qeydə alınır.

**Kreditlərin restrukturizasiyası**

Mümkün olduğu hallarda, Cəmiyyət girovu reallaşdırmadan öncə kreditin prolonqasiya edilməsinə səy göstərir. Belə səylərə ödəmə şərtlərinin dəyişdirilməsi və ya yeni kredit sazişinin imzalanması daxildir.

Şərtlər yenidən razılaşdırıldıqdan sonra belə kreditlər artıq gecikmiş sayılmır. Rəhbərlik daimi olaraq, prolonqasiya edilmiş kreditləri təhlil edərək onlar üzrə bütün şərtlərin yerinə yetirilməsini və gələcək ödənişlərin icra olunması ehtimalını təhlil edir. Belə kreditlər, fərdi olaraq və ya kollektiv şəkildə dəyərsizləşmə ehtimallarının mövcudluğunun yoxlanılması məqsədi ilə kreditin ilkin və ya cari effektiv faiz dərəcəsindən istifadə edilərək təhlil edilirlər.

**Verilmiş kreditlərin və avansların silinməsi**

Cəmiyyətin siyasətinə əsasən, verilmiş kreditlər və avanslar qaytarılması mümkün olmadıqda dəyərsizləşmə üzrə yaradılmış olan ehtiyatların hesabına silinirlər.

**Maliyyə aktivlərinin uçotunun xitamı**

Cəmiyyət maliyyə aktivi müqaviləsi üzrə pul vəsaitlərinin alınması hüququnun başa çatması və ya maliyyə aktivi, eləcə də sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və mükafatların digər tərəfə ötürülməsi halında maliyyə aktivinin tanınmasına xitam verir. Cəmiyyət sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və mükafatların digər tərəfə ötürdükdə belə transfer edilmiş aktiv üzərində nəzarəti saxlayırsa, bu zaman saxlanılmış maraqlar aktiv kimi tanınır və müvafiq şəraitdə Cəmiyyətin ödənilməsi ehtimal edilən məbləğlər də müvafiq olaraq öhdəlik kimi tanınır. Əgər Cəmiyyət transfer edilən maliyyə aktivinin sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və mükafatları özündə saxlayırsa, bu zaman aktivin tanınması davam edir və əlavə olaraq girov qoyularaq götürülmüş vəsaitlər də borc məbləği kimi tanınır.

Maliyyə aktivi maliyyə vəziyyəti hesabatından tam şəkildə çıxarıldıqda, aktivin qalıq dəyəri ilə onun transferindən alınan və ya alınması nəzərdə tutulan məbləğlərin cəmi arasındakı fərq, mənfəət və ya zərər və digər məcmu gəlir hesabında xitam anınadək tanınmış və kapital hesablarında uçotu aparılan mənfəət və zərər məbləğləri dərhal mənfəət və zərər hesablarında tanınır.

Maliyyə aktivi maliyyə vəziyyəti hesabatından qismən çıxarıldıqda (məsələn, Cəmiyyətin transfer edilmiş aktivin bir hissəsini geri almaq seçimi olduqda və ya bu aktiv üzrə sahiblik hüququ ilə bağlı bütün əhəmiyyətli risk və mükafatların digər tərəfə ötürülərək yalnız cüzi bir hissənin saxlanılması və bunun nəticəsində nəzarətin Cəmiyyətdə qalması halları), Cəmiyyət aktivin qalıq dəyərini cari iştirak ilə bağlı tanınması davam edən qism və transfer edilən hissələrin nisbi ədalətli dəyərinə görə təyin edilmiş və maliyyə vəziyyəti hesabatında tanınmayan qismdən ibarət iki hissəyə ayırır. Aktivin tanınmasına xitam verilmiş qisminə aid edilən qalıq dəyəri ilə onun transferindən alınan məbləğlərin cəmi arasındakı fərq,

mənfəət və ya zərər və digər məcmu gəlir hesabında xitam anınadək tanınmış mənfəət və zərər məbləğləri dərhal mənfəət və zərər hesablarında tanınır.

Mənfəət və ya zərər və digər məcmu gəlir hesabında tanınmış mənfəət və zərər məbləğlərini, aktivin tanınmasına xitam verilən qismi ilə tanınması davam edən qismi arasında bölərkən bu qismlərin ədalətli dəyərlərinin nisbətləri əsas götürülür.

**Maliyyə öhdəlikləri və kapital alətləri**

Borc və kapital alətləri müqavilə şərtlərindən, eləcə də təyinatından asılı olaraq maliyyə öhdəlikləri və ya kapital kimi təsnifləşdirilirlər.

***Kapital alətləri***

Bütün öhdəliklər ödənildikdən sonra xalis aktivlərdə sahiblik hüququna dəlalət edən istənilən müqavilə kapital aləti sayılır. Cəmiyyət tərəfindən yerləşdirilən kapital alətləri, müvafiq yerləşdirmə xərcləri çıxıldıqdan sonra müvafiq vəsaitlərin daxil olması zamanı maliyyə hesabatlarında tanınır.

***Maliyyə öhdəlikləri***

Maliyyə öhdəlikləri, "MZHƏD maliyyə öhdəlikləri" və "digər maliyyə öhdəlikləri" olmaqla iki hissəyə ayrılır.

*MZHƏD*

Maliyyə öhdəlikləri ticarət məqsədləri ilə saxlanıldıqda və ya xüsusi olaraq MZHƏD şəklində nəzərdə tutulduqda MZHƏD maliyyə öhdəlikləri kateqoriyasına aid edilirlər.

MZHƏD maliyyə öhdəlikləri ədalətli dəyərlə təqdim edilir və yenidən ölçülmə zamanı yaranan mənfəət və zərər məbləğləri müvafiq olaraq mənfəət və zərər hesablarında tanınır. Mənfəət və zərər hesabında tanınan xalis mənfəət və ya zərərə maliyyə öhdəliyi üzrə ödənilən bütün faizlər daxildir və bu məbləğ mənfəət və ya zərər və digər məcmu gəlir hesabatında "digər gəlirlər/(xərclər)" bəndində öz əksini tapır.

*Digər maliyyə öhdəlikləri*

Digər maliyyə öhdəlikləri ilkin olaraq bütün əməliyyat xərcləri çıxıldıqdan sonra ədalətli dəyər ilə ölçülür.

Digər maliyyə öhdəlikləri növbəti dövrlərdə effektiv faiz dərəcəsi metodundan istifadə olunmaqla amortizasiya edilmiş maya dəyərində ölçülür və faiz xərcləri effektiv gəlir kriteriyasına əsaslanaraq tanınır.

Effektiv faiz dərəcəsi metodu, maliyyə öhdəliyinin amortizasiya olunmuş maya dəyərinin hesablanılması və faiz xərci məbləğinin müvafiq dövrlər üzrə paylaşdırılmasını nəzərdə tutur. Bu metod maliyyə öhdəliyinin nəzərdə tutulan istifadə müddəti üzrə təxmin edilən gələcək ödəniləcək vəsaitləri və ya müvafiq olduqda, daha qısa müddət üzrə maliyyə öhdəliyinin qalıq dəyərini dəqiq diskontlaşdıran dərəcədir.

**Borc alınmış vəsaitlər**

Borc alınmış vəsaitlərin məbləği müqavilə tərəfdaşı tərəfindən vəsaitlərin Cəmiyyətə ödənildiyi zaman qeyd olunur. Qeyri-törəmə maliyyə öhdəlikləri amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Cəmiyyət borclarını satın aldığı halda maliyyə vəziyyəti hesabatından çıxarılır və borcun erkən ödənilməsi əsasında yaranan öhdəliyin qalıq dəyəri və ödənilmiş məbləğ arasındakı fərq mənfəət və zərər hissəsinə daxil edilir.

**Maliyyə öhdəliklərinin tanınmasına xitam verilməsi**

Maliyyə öhdəliyinə yalnız bu öhdəliyin silinməsi, ləğv edilməsi və ya müddətinin başa çatması hallarında xitam verilir. Tanınmasına xitam verilmiş maliyyə öhdəliyinin qalıq dəyəri ilə ödənilmiş və ya ödəniləcək məbləğlərin cəmi arasındakı fərq dərhal mənfəət və zərər hesablarında tanınır.

**Maliyyə aktiv və öhdəliklərin əvəzləşdirilməsi**

Maliyyə aktivləri və öhdəlikləri yalnız aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüquq olduqda və ya eləcə də müqavilə üzrə əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək

öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər. Maliyyə aktivlərinin müvəqqəti olaraq qarşı tərəfə transfer edilməsi zamanı bu maliyyə aktivləri qarşı tərəfin öhdəliyi ilə əvəzləşdirilmir.

**Əmlak, avadanlıq və qeyri-maddi aktivlər**

Əmlak, avadanlıq və qeyri-maddi aktivlər yığılmış amortizasiya və ehtimal edilən dəyər azalmaları üzrə ehtiyatlar çıxılmaqla tarixi dəyəri ilə tanınır. Faydalı iqtisadi ömür təxminləri, qalıq dəyərləri və köhnəlmə/amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq aşağıdakı dərəcələrdə tətbiq edilir:

| | |
|---|---|
| Binalar | 7% |
| Nəqliyyat vasitələri | 20% |
| Kompüter və avadanlıqlar | 33% |
| Mebel və qurğular | 20% |
| Digər aktivlər | 25% |

Təmir və saxlama xərcləri baş verdiyi zaman tanınır və kapitalizasiya kriteriyalarına uyğun gəlməsi halları istisna olmaqla mənfəət və zərər hesablarında əməliyyat xərcləri kimi tanınır.

Hər bir hesabat dövrünün sonunda Cəmiyyət öz əmlak, avadanlıq və qeyri-maddi aktivlərini dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa bu aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır. Fərdi aktiv üzrə əldə edilməsi mümkün olan məbləğin təyin edilməsi mümkün olmadıqda Cəmiyyət aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin qalıq dəyərini təhlil edir.

Tikililər yenidən hesablama tarixində ədalətli dəyərdə olan, müstəqil qiymətləndiricilər tərəfindən zəmanətli şəkildə, bazar əsaslı faktlarla müəyyənləşmiş, hər hansı sonrakı yığılmış amortizasiya və qiymətdən düşmə zərərlərindən az olmaqla, maliyyə vəziyyəti haqqında hesabatda öz yenidən qiymətləndirilmiş məbləğlərində göstərilir. Yenidən hesablama elə bir müntəzəm qaydada həyata keçirilir ki, balans dəyəri maliyyə hesabatı tarixində istifadə olunan ədalətli dəyər ilə müəyyən olunmuş dəyərdən maddi olaraq, fərqlənmir.

Əmlakın bazar dəyərinin təyin olması, bazar yanaşma metodu ilə aparılır ki, bu da özündə, bənzər daşınmaz əmlak qiymətləri və MHBS 13 ilə uyğunlaşan tikililərin ədalətli dəyəri ilə eyni olan bazar satış qiymətlərinin təhlili də daxil edir.

Yenidən hesablama nəticəsində bu cür binaların yenidən qiymətləndirilməsindən yaranan hər hansı bir artım əmlakın yenidən hesablama ehtiyatının kredit balansına yazılır. Bu artım, əgər eyni aktivin, bundan əvvəl xərc kimi tanınan dəyərləndirilmiş məbləğində azalmadırsa, bu hal istisna kimi götürülür. Əgər artım əvvəllər hesablanmış azalma həcminə uyğundursa, mənfəət və ya zərər və digər məcmu gəlir hesabatında kredit hesabı kimi göstərilir. Əgər yenidən hesablama həmin aktivlərin əvvəlki yenidən hesablamaları ilə əlaqəlidirsə, bu cür binaların yenidən qiymətləndirməsindən yaranan azalma balansdan artıqdırsa, xərc kimi hesablanır.

Yenidən qiymətləndirilmiş tikililər üzrə amortizasiya ayırmaları mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabata daxil edilir. Yenidən qiymətləndirmə artımı illik olaraq, bölüşdürülməmiş gəlirə köçürülür. Köçürülmüş artımın miqdarı aktivin ilkin dəyəri üzrə tutulmuş amortizasiya xərcləri ilə, artım ilə bağlı vergi təsiri üçün tənzimlənən yenidən qiymətləndirilmiş hesab üzrə tutulmuş amortizasiya xərcləri arasındakı fərqə bərabərdir.

Əgər aktiv (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidi) üzrə əldə edilməsi mümkün olan məbləğ aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) qalıq dəyərindən azdırsa onun qalıq dəyəri qaytarılması mümkün olan məbləğə qədər azaldılır. Dəyərsizləşmə zərəri birbaşa mənfəət və zərər hesablarında qeydə olunur.

Dəyərsizləşmə zərərlərinə səbəb olan hallar növbəti dövrlərdə aradan qalxdıqda aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) qalıq dəyəri yenidən təyin edilmiş məbləğə qədər artırılır amma yeni təyin edilmiş qalıq dəyəri aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) keçmiş dövrlərdə dəyərsizləşmə itkilərinin tanınmasından öncə mövcud olan qalıq dəyərindən

daha çox ola bilməz. Dəyərsizləşmə zərərlərinin geri qaytarılması dərhal mənfəət və zərər hesablarında tanınır.

Silindikdə, satıldıqda və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əmlak, avadanlıq və qeyri-maddi aktivlərin tanınmasına xitam verilir. Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin qalıq dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesablarında tanınır.

**Vergi qanunvericiliyi**

Vergi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmindən ibarətdir.

Cari vergi xərci hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Mənfəət və ya zərər və digər məcmu gəlir hesabatındakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti maliyyə hesabatlarındakı mənfəətdən fərqlənir. Cəmiyyətin cari mənfəət vergisi xərci, hesabat dövründə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir.

Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq balansda tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin qalıq dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa kapitala təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir hesabında əks etdirilir. Kapitala təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də kapitalda öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edilsin və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olsun.

Azərbaycan Respublikasında fəaliyyət göstərən bənzər təşkilatların fəaliyyəti nəticəsində digər vergilər də yaranır. Bu vergilər əməliyyat xərclərinin bir hissəsi kimi tanınır və mənfəət və ya zərər və digər məcmu gəlir hesabatına daxil edilir.

**Ehtiyatlar**

Ehtiyatlar, Cəmiyyət keçmiş hadisələr nəticəsində cari hüquqi və ya əsaslanmış öhdəliyə malik olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərə yaradan ehtiyatların azalma ehtimalı olduqda və öhdəlik məbləği etibarlı şəkildə qiymətləndirildikdə uçota alınır.

Ehtiyat kimi tanınan məbləğ hesabat dövrünün sonunda müvafiq risklər və qeyri-müəyyənliklər də nəzərə alınmaqla cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan məbləğin təxmini göstəricisidir. Ehtiyatı hesablayarkən cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan pul vəsaitlərinin təxminindən istifadə

edilirsə, ehtiyatın qalıq dəyəri bu pul vəsaitlərinin cari dövrə olan diskontlaşdırılmış dəyərinin cəminə bərabərdir (pulun vaxt dəyərinin əhəmiyyət kəsb etdiyi hallarda).

Ehtiyatın qarşılanması üçün tələb edilən iqtisadi faydaların tam və ya qismən üçüncü şəxslərin hesabına geri qaytarılması gözlənilirsə, debitor borc aktiv kimi yalnız o halda tanınır ki, üçüncü tərəfin kompensasiya ödəməsi ehtimalı var və bu məbləğ etibarlı şəkildə təxmin edilə bilər.

**Təqaüd və digər mükafatlar üzrə öhdəliklər**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq, Cəmiyyət işçilərin əmək haqlarından təqaüd ayırmaları tutur və onları dövlət sosial müdafiə fonduna köçürür. Bu cür ayırmaları hesablayarkən təqaüd sisteminin göstərişlərinə müvafiq olaraq işəgötürənlər tərəfindən cari ödənişlərin hesablanması zamanı işçi heyəti üzrə nəzərdə tutulan ümumi xərclərin müəyyən nisbəti götürülür. Belə xərclər müvafiq əmək haqlarının alındığı dövrlərə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər dövlət sosial müdafiə fondu tərəfindən yerinə yetirilir.

Cəmiyyət Azərbaycan Respublikasının dövlət sosial müdafiə fondu tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı bir digər təqaüd proqramında iştirak etmir. Bundan əlavə, Cəmiyyətdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilməsi məcbur olan digər mühüm müavinətlər mövcud deyildir.

**Şərti aktivlər və öhdəliklər**

Şərti aktivlər maliyyə vəziyyəti hesabatında tanınmır, amma belə aktivlərlə bağlı iqtisadi mənfəətlərin alınması ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir. Şərti öhdəliklər maliyyə vəziyyəti hesabatında tanınmır, amma bu öhdəliklərlə bağlı pul vəsaitlərinin ödənilməsinin ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir.

**Nizamnamə kapitalı**

Nizamnamə kapitalı səhmdarlar tərəfindən verilən nizamnamə kapitalının miqdarıdır. Səhmlərin ümumi miqdarı Cəmiyyətin öz nizamnamə kapitalını qanuna müvafiq olaraq səhmdarların razılığı ilə artıra və ya azalda bilər. Adi səhmlər üzrə dividentlər bu dividentlərin elan olunduğu dövr üzrə azalma kimi tanınır. Beynəlxalq Mühasibat Uçotu Standartı 10 "Hesabat tarixindən sonra baş vermiş hadisələr" (BMUS 10) müvafiq olaraq balans hesabatı tarixindən sonra elan edilmiş dividentlər sonradan baş vermiş hadisələr kimi qəbul edilir və müvafiq olaraq açıqlanır.

**Xarici valyuta əməliyyatları**

Cəmiyyətin əməliyyat valyutası onun fəaliyyət göstərdiyi iqtisadi mühitin valyutası olan Azərbaycan Manatıdır.

Xarici valyutada olan maliyyə aktiv və öhdəliklər, balans tarixində mövcud olan ARMB-nın valyuta məzənnəsinə uyğun olaraq Azərbaycan Manatına çevrilir. Xarici valyutada aparılan əməliyyatlar isə əməliyyat tarixinə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq manat ekvivalentinə çevrilir. Bu çevrilmələr zamanı yaranan gəlir və xərclər mənfəət və zərər hesabında xarici valyuta ilə əməliyyatlar üzrə gəlirlər/(zərər çıxılmaqla) sətrində göstərilir.

**Xarici valyuta məzənnələri**

Maliyyə hesabatlarının hazırlanması zamanı Cəmiyyət tərəfindən istifadə edilən hesabat tarixinə valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| ABŞ dolları/AZN | 1.7000 | 1.7000 |
| Avro/AZN | 1.9035 | 1.9468 |

## 3. MÜHÜM MÜHASİBAT TƏXMİNLƏRİ VƏ TƏXMİN EDİLƏN QEYRİ-MÜƏYYƏNLİKLƏRİN ƏSAS MƏNBƏLƏRİ

Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verməsini tələb edir. Rəhbərlik mütəmadi olaraq öz təxminlərini və mülahizələrini təhlil edir. Rəhbərlik təxminlərini və mülahizələrini tarixi təcrübəyə və müəyyən şərtlər çərçivəsində məntiqli hesab edilən digər faktlara əsaslandırır. Müxtəlif şəraitlərdə və vəziyyətlərdə faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər. Aşağıda göstərilən təxminlər və mülahizələr Cəmiyyətin maliyyə vəziyyətinin təsvir edilməsi üçün zəruri hesab edilir.

### *Kreditlərin dəyərsizləşməsi üzrə zərər ehtiyatları*

Dəyərsizləşmə üzrə qiymətləndirilmənin aparılması üçün Cəmiyyət verilmiş kreditlərin mütəmadi olaraq təhlilini keçirir. Cəmiyyətin dəyərsizləşmə üzrə zərər ehtiyatları yaratması onun kreditlər və alınacaq vəsaitlər portfelində yarana biləcək dəyərsizləşmə ehtiyatlarının tanınması məqsədi daşıyır. Cəmiyyət rəhbərliyi hesab edir ki, ehtiyatlarla bağlı təxminlər ən əsas subyektivlik daşıyan məqamdır, çünki: (i) gələcəkdəki itkilərin faizi və şübhəli kreditlər üzrə yarana biləcək itkilərin ölçülməsi üzrə edilən ehtimallar müxtəlif dövrlər arasında dəyişir, hesabat tarixində isə bu ehtimallar yalnız cari təcrübəyə əsaslanır, və (ii) Cəmiyyətin təxmin etdiyi itkilərlə faktiki itkilər arasında əhəmiyyətli fərqlər yaranarsa, bu fərqlər Cəmiyyətin gələcəkdəki fəaliyyətinin yekunlarına, eləcə də maliyyə vəziyyətinə təsir göstərə bilər.

Borcalanın maliyyə çətinlikləri olduqda və eyni borcalana aid az tarixi məlumat mənbələri əldə etdiyi hallarda dəyərsizləşmə zərərinin məbləğini təxmin etmək üçün Cəmiyyətin rəhbərliyi mülahizələrdən istifadə edir. Eləcə də, Cəmiyyət əvvəlki təqdimat əsasında gələcək pul vəsaitlərinin hərəkətində dəyişiklikləri, müştərilərin əvvəlki davranışını, qrup daxilində borcalanın ödəniş qabiliyyətində mənfi dəyişikliklər haqqında ümumi məlumatı və qrup daxilində aktivlər üzrə öhdəliklərin yerinə yetirilməməsi ilə əlaqədar olan ölkə miqyaslı və yerli iqtisadi şərtlərə dair təxminlər edir. Rəhbərlik kredit riski daşıyan aktivlər üzrə tarixi zərər təcrübəsinə və kreditlər qrupunda dəyərsizləşmə üzrə eyni olan obyektiv sübutlara əsaslanan təxminlərdən istifadə edir. Tarixi məlumatda cari şərait əks olunmadığından, yeni kreditlər qrupuna dair müşahidə olunan məlumata düzəlişlər etmək üçün Cəmiyyət rəhbərliyi mülahizələrdən istifadə edir.

Maliyyə hesabatlarında maliyyə aktivləri üzrə dəyərsizləşmə ehtiyatları, mövcud iqtisadi və siyasi şərtlər əsasında təyin edilmişdir. Ölkədə baş verə biləcək hadisələri və bu şəraitin maliyyə aktivləri üzrə gələcək dövrlərdə dəyərsizləşmə ehtiyatlarının uyğunluğuna edəcəyi təsirlə bağlı Cəmiyyət qabaqcadan xəbər vermək iqtidarında deyil.

31 dekabr 2019 və 2018-ci il tarixlərinə müştərilərə verilmiş kreditlər üzrə yaradılmış dəyərsizləşmə ehtiyatının qalıq dəyərləri müvafiq olaraq 1,974,998 AZN və 4,009,203 AZN təşkil etmişdir.

### Təxirə salınmış vergi aktivlərinin bərpası

31 dekabr 2019 və 2018-ci il tarixlərinə təxirə salınmış vergi aktivlərinin qalıq dəyəri müvafiq olaraq, 32,333 AZN və 24,588 AZN dəyərlərində olmuşdur.

Cəmiyyətin rəhbərliyi təxirə salınmış vergi aktivinin qalıq dəyərinin gələcəkdə tam həyata keçiriləcəyinə əmindir.

### Əmlak və avadanlıqların faydalı iqtisadi ömrü

Cəmiyyət hər maliyyə ilinin sonunda əmlak və avadanlıqların qalan faydalı iqtisadi ömürlərini qiymətləndirir. Bu aktivlərin nəzərdə tutulan faydalı ömürləri ötən ilin qiymətləndirilməsindən fərqli olduqda, BMUS 8 "Uçot Siyasətləri, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Xətalar" standartına müvafiq olaraq uçot təxminlərində dəyişiklik olaraq uçota alınır. Belə təxminlərin əmlak və avadanlıqların qalıq dəyərlərinin məbləğləri və mənfəət və zərərdə tanınmış amortizasiya üzrə təsirləri olur.

**Cari vergilər**

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyində müxtəlif şərhlər edilir və dəyişikliklər tez-tez baş verir. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq ediləcək səlahiyyətli vergi orqanının nümayəndələri tərəfindən edilmiş vergi qanunvericiliyinə aid şərhlər rəhbərliyin fikirləri ilə uzlaşmaya bilər. Nəticədə, səlahiyyətli vergi orqanının nümayəndələri əməliyyatlara etiraz edə bilər və Cəmiyyətə əhəmiyyətli dərəcədə əlavə vergilər, cərimələr və faizlər təyin edilə bilər. Müvafiq olaraq, üç təqvim ili üzrə vergi öhdəlikləri ilə əlaqədar olaraq vergi və gömrük orqanlarının nümayəndələri tərəfindən yoxlanıla bilər.

## 4. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR

Hazırki maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş lakin qüvvəyə minməmişdir.

***MHBS 17 "Sığorta müqavilələri" (18 may 2017-ci ildə dərc olunub və 1 yanvar 2021-ci il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).*** MHBS 17 şirkətlərə sığorta müqavilələrinin uçotu üzrə mövcud praktikanı tətbiq etməyə icazə verən MHBS 4-ü əvəz edir. MHBS 4-ə əsasən investorlar analoji sığorta şirkətlərində maliyyə nəticələrini müqayisə etmək və üzləşdirməklə çətinlik çəkirdilər. MHBS 17 sığortaçının təkrar sığorta müqavilələri daxil olmaqla, bütün növ sığorta müqavilələrinin uçotu standartının prinsiplərinə əsaslanan yeganə standartdır. Bu standartın tələbinə görə sığorta müqavilələri qrupları (i) müqavilələrin yerinə yetirilməsi üçün nağd pul axınları üzrə mövcud olan bütün məlumatları müşahidə edilə bilən bazar məlumatlarına uyğun olaraq nəzərə alan riskə görə düzəldilmiş gələcək nağd pul axınlarının diskont dəyəri ilə (müqavilələrin yerinə yetirilməsi üzrə nağd pul axınları); (ii) müqavilələr qrupu üzrə bölüşdürülməmiş mənfəəti (müqavilələr üzrə servis marjası) toplamaqla (dəyər öhdəlik olduqda) və ya çıxmaqla (dəyər aktiv olduqda) tanınmalı və qiymətləndirilməlidir. Sığortaçılar sığorta müqavilələri qrupundan yaranan gəliri sığorta proqramını təqdim etdiyi dövr ərzində, eləcə də riskdən azad olunduğu halda əks etdirəcəkər. Müqavilələr qrupu üzrə zərər mövcuddursa və ya mövcud olarsa müəssisə dərhal zərəri əks etdirəcək.

***Maliyyə hesabatlarının hazırlanması və təqdim olunması üzrə Konseptual Əsaslara düzəlişlər (29 mart 2018-ci ildə dərc olunub və 1 yanvar 2020-ci il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).*** Yenidən işlənmiş Konseptual Əsaslara qiymətləndirməyə dair yeni bölmə, hesabatlarda maliyyə nəticələrinin əks etdirilməsinə dair tövsiyyələr, təkmilləşdirilmiş anlayışlar və tövsiyyələr (xüsusilə, öhdəlikər ilə bağlı anlayış) və maliyyə hesabatlarının hazırlanmasında idarəetmə rolu, ehtiyatlılıq və qiymətləndirmə ilə bağlı qeyri-müəyyənlik kimi mühüm məsələlərin izahı daxildir.

Rəhbərlik yeni standartların həyata keçirilməsi, konsolidə edilmiş maliyyə hesabatlarına təsir göstərməsi və Cəmiyyət tərəfindən qəbulu müddətini də nəzərə alır.

Yuxarıda başqa cür nəzərdə tutulmadığı halarda, yeni standartlar və şərhlərin Cəmiyyətin konsolidə edilmiş maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

## 5. İŞÇİLƏRƏ SƏRF OLUNAN XƏRCLƏR VƏ MÜVAFİQ AYIRMALAR

İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalara aşağıdakılar daxildir:

| | 31 dekabr 2019-cu il tarixində bitən il üzrə | 31 dekabr 2018-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| Əmək haqları | 619,675 | 648,043 |
| Müavinətlər, mükafatlandırma və digər təqaüdlər | 151,906 | 102,582 |
| İcbari sosial təminat öhdəlikləri | 120,764 | 136,436 |
| **İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalar** | **892,345** | **887,061** |

## 6. ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR

Ümumi və inzibati xərcləri aşağıdakılar daxildir:

| | 31 dekabr 2019-cu il tarixində bitən il üzrə | 31 dekabr 2018-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| Təhlükəsizlik xərcləri | 35,626 | 43,198 |
| Bank komissiyaları | 18,055 | 17,678 |
| İcarə xərcləri | 21,866 | 34,025 |
| Mənfəət vergisi xərclərindən əlavə vergilər | 4,954 | 5,957 |
| Ofis ləvazimatları | 18,822 | 29,001 |
| Amortizasiya | 46,379 | 23,946 |
| Hüquqi və məhkəmə xərcləri | 2,840 | 2,380 |
| Ezamiyyət xərcləri | 22,133 | 16,346 |
| Peşəkar xidmət haqları və ödənişlər | 13,840 | 18,260 |
| Təmir və texniki xərclər | 4,210 | 5,272 |
| Nəqliyyat xərcləri | - | 93 |
| Kommunal xərclər | 15,222 | 17,876 |
| Təlim xərcləri | 5,687 | 425 |
| Üzvlük haqları | - | 6,348 |
| Rabitə xərcləri | 11,065 | 12,061 |
| İnstitusional inkişaf xərcləri | 12,259 | 7,306 |
| Sığorta xərcləri | 13,472 | 32,700 |
| Digər | 88,439 | 95,049 |
| **Cəmi ümumi və inzibati xərclər** | **334,869** | **367,921** |

## 7. MƏNFƏƏT VERGİSİ

Cəmiyyət, vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarına və qeydlərinə əsasən hesablayır və bu hesablamalar MHBS-dən fərqlənə bilər.

Bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergidən azad olduğundan Cəmiyyət müəyyən daimi vergi fərqlərinin təsirinə məruz qalır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin qalıq dəyəri ilə onların vergi hesabatındakı qalıq dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir.

31 dekabr 2019 və 2018-ci il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasında müxtəlif üsulların istifadə edilməsinə, eləcə də bəzi aktivlər üzrə vergi uçotunda olan qalıqların maliyyə hesabatlarında olan qalıqlara nisbətən fərqli olması nəticəsində yaranır.

Azərbaycan Respublikasının vergi qanunvericiliyi xüsusilə fərqli şərhlərə və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, vergi qanunvericiliyinə dair rəhbərliyin şərhi vergi orqanlarının şərhindən fərqlənə biləcəyi

üçün, sövdələşmələrə vergi orqanları tərəfindən etiraz edilə bilər və nəticədə Cəmiyyətə maliyyə hesabatları üçün əhəmiyyətli olacaq əlavə vergilər, cəzalar və faizlər tətbiq oluna bilər.

| | 31 dekabr 2019-cu il tarixində bitən il üzrə | 31 dekabr 2018-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| Cari vergi xərcləri | 34,184 | 30,648 |
| Təxirə salınmış vergi (faydası)/xərci | (7,745) | 98,258 |
| **İl üzrə mənfəət vergisi** | **26,439** | **128,906** |

Gözlənilən və faktiki tətbiq edilən vergi xərclərinin tutuşdurulması aşağıda göstərilir:

| | 31 dekabr 2019-cu il tarixində bitən il üzrə | 31 dekabr 2018-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| **BMHS-na əsasən vergidən əvvəlki mənfəət** | **3,373,525** | **660,715** |
| Qanunvericiliklə müəyyən edilmiş vergi dərəcəsinə əsasən hesablanmış mənfəət vergisi xərci (20%) | 674,705 | 132,143 |
| **Vergi məqsədləri üçün çıxılmayan xərclər və ya vergidən azad edilməyən gəlirlərin vergi effekti:** | | |
| Vergiyə cəlb edilməyən gəlirlər | (648,266) | (3,237) |
| Gəlirdən çıxılmayan xərclər | - | - |
| **İl üzrə mənfəət vergisi xərci** | **26,439** | **128,906** |

***Təxirə salınmış mənfəət vergisi.*** Təxirə salınmış mənfəət vergisi MHBS-ə uyğun maliyyə hesabatlarının hazırlanması məqsədilə uçota alınmış aktiv və öhdəliklərin balans dəyəri ilə yerli vergi qanunvericiliyinə əsasən uçota alınmış belə məbləğlər arasındakı müvəqqəti fərqlərin təsirini əks etdirir. Təxirə salınmış mənfəət vergisi, öhdəlik metoduna əsasən 20% dərəcəsi ilə bütün müvəqqəti fərqlər üçün hesablanır. 31 dekabr 2019 və 31 dekabr 2018-ci il tarixlərində tamamlanan il üzrə bu müvəqqəti fərqlərdəki hərəkətlərin vergi təsiri aşağıda göstərilir:

| | 31 dekabr 2018-ci il | Gəlir və xərc hesabatında (xərc)/gəlir kimi yazılmışdır | 31 dekabr 2019-cu il |
|---|---|---|---|
| ***Vergi bazasını artıran/(azaldan) müvəqqəti fərqlərin vergi təsiri*** | | | |
| Müştərilərə verilmiş kreditlər | - | 18,891 | 18,891 |
| Əmlak və avadanlıqlar | 2,678 | 2,697 | 5,375 |
| Digər aktivlər | 22,240 | (10,344) | 11,896 |
| Borc alınmış vəsaitlər | 842 | (1,845) | (1,003) |
| Digər öhdəliklər | (1,172) | (1,654) | (2,826) |
| **Xalis təxirə salınmış vergi aktivi** | **24,588** | **7,745** | **32,333** |

## 8. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

Pul vəsaitləri və onların ekvivalentləri aşağıda göstərilmişdir:

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| Nağd pul vəsaitləri | 5,430 | 3,013 |
| Bank hesablarında yerləşdirilmiş vəsaitlər | 1,106,947 | 238,484 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **1,112,377** | **241,497** |

## 9. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

Müştərilərə verilmiş kreditlər, ilkin olaraq, Azərbaycan Respublikasının ərazisində yaşayanlar üçün nəzərdə tutulur.

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| Kənd təsərrüfatı | 1,532,498 | 3,674,425 |
| Ticarət | 1,123,575 | 1,804,077 |
| Xidmət | 2,794,683 | 2,201,712 |
| Digər | 2,250,841 | 439,700 |
| **Müştərilərə verilmiş kreditlər (Ümumi)** | **7,701,597** | **8,119,914** |
| Çıxılsın: Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat | (1,974,998) | (4,009,203) |
| **Müştərilərə verilmiş kreditlər və avanslar (Xalis)** | **5,726,599** | **4,110,711** |
| Təxirə salınmış komissiya gəliri | (131,893) | (60,402) |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar (Xalis)** | **5,594,706** | **4,050,309** |

31 dekabr 2019-cu il tarixində bitən il ərzində kənd təsərrüfatı sektoruna aid kreditlər üzrə ümumi balans dəyərində və müvafiq gözlənilən kredit zərərində olan dəyişikliklərin təhlili aşağıdakı kimidir:

| **Müştərilərə verilmiş kreditlər – kənd təsərrüfatı** | **Mərhələ 1** | **Mərhələ 2** | **Mərhələ 3** | **Cəmi** |
|---|---|---|---|---|
| **1 yanvar 2019-cu il tarixinə balans dəyəri** | **802,062** | **22,392** | **2,849,971** | **3,674,425** |
| Yeni yaranmış və ya alınmış aktivlər | 461,450 | - | - | 461,450 |
| Ödənilmiş aktivlər | (815,285) | (15,521) | (1,140,098) | (1,970,904) |
| Birinci mərhələyə köçürmə | - | - | - | - |
| İkinci mərhələyə köçürmə | (9,398) | 9,398 | - | - |
| Üçüncü mərhələyə köçürmə | (81,800) | (7,456) | 89,256 | - |
| Bərpa olunan aktivlər | 1,218 | - | 87,554 | 88,772 |
| Silinən aktivlər | - | - | (87,512) | (87,512) |
| Digər kreditlər kimi restrukturizasiya olunmuş məbləğlər | - | - | (633,733) | (633,733) |
| **31 dekabr 2019-cu il tarixinə balans dəyəri** | **358,247** | **8,813** | **1,165,438** | **1,532,498** |

| **Müştərilərə verilmiş kreditlər – kənd təsərrüfatı** | **Mərhələ 1** | **Mərhələ 2** | **Mərhələ 3** | **Cəmi** |
|---|---|---|---|---|
| **1 yanvar 2019-cu il tarixinə GKZ ehtiyatı** | **-** | **(8,095)** | **(2,107,210)** | **(2,115,305)** |
| Yeni yaranmış və ya alınmış aktivlər | (30,104) | - | - | (30,104) |
| Ödənilmiş aktivlər | - | 4,862 | 994,548 | 999,410 |
| Zərər ehtiyatının yenidən hesablanması | (3,175) | (404) | (98,534) | (102,113) |
| Birinci mərhələyə köçürmə | - | - | - | - |
| İkinci mərhələyə köçürmə | 1,028 | (1,028) | - | - |
| Üçüncü mərhələyə köçürmə | 722 | 2,678 | (3,400) | - |
| Bərpa olunan aktivlər | - | - | (54,964) | (54,964) |
| Silinən aktivlər | - | - | 87,512 | 87,512 |
| Digər kreditlər kimi restrukturizasiya olunmuş məbləğlər | - | - | 462,144 | 462,144 |
| **31 dekabr 2019-cu il tarixinə GKZ ehtiyatı** | **(31,529)** | **(1,987)** | **(719,904)** | **(753,420)** |

31 dekabr 2019-cu il tarixdə bitən il ərzində ticarət sektoruna aid kreditlər üzrə ümumi balans dəyərində və müvafiq gözlənilən kredit zərərində olan dəyişikliklərin təhlili aşağıdakı kimidir:

| **Müştərilərə verilmiş kreditlər – ticarət** | **Mərhələ 1** | **Mərhələ 2** | **Mərhələ 3** | **Cəmi** |
|---|---|---|---|---|
| **1 yanvar 2019-cu il tarixinə balans dəyəri** | **698,385** | **6,152** | **1,099,540** | **1,804,077** |
| Yeni yaranmış və ya alınmış aktivlər | 898,800 | - | - | 898,800 |
| Ödənilmiş aktivlər | (813,731) | (6,261) | (575,265) | (1,395,257) |
| Birinci mərhələyə köçürmə | 10,078 | - | (10,078) | - |
| İkinci mərhələyə köçürmə | - | 7,447 | (7,447) | - |
| Üçüncü mərhələyə köçürmə | (484) | - | 484 | - |
| Bərpa olunan aktivlər | 5,894 | - | 24,944 | 30,838 |
| Silinən aktivlər | - | - | (23,505) | (23,505) |
| Digər kreditlər kimi restrukturizasiya olunmuş məbləğlər | - | - | (191,378) | (191,378) |
| **31 dekabr 2019-cu il tarixinə balans dəyəri** | **798,942** | **7,338** | **317,295** | **1,123,575** |

| **Müştərilərə verilmiş kreditlər – ticarət** | **Mərhələ 1** | **Mərhələ 2** | **Mərhələ 3** | **Cəmi** |
|---|---|---|---|---|
| **1 yanvar 2019-cu il tarixinə GKZ ehtiyatı** | **-** | **(1,775)** | **(751,909)** | **(753,684)** |
| Yeni yaranmış və ya alınmış aktivlər | (70,793) | - | - | (70,793) |
| Ödənilmiş aktivlər | - | 1,775 | 397,277 | 399,052 |
| Zərər ehtiyatının yenidən hesablanması | (2,425) | - | (26,379) | (28,804) |
| Birinci mərhələyə köçürmə | - | - | - | - |
| İkinci mərhələyə köçürmə | - | (2,230) | 2,230 | - |
| Üçüncü mərhələyə köçürmə | - | - | - | - |
| Bərpa olunan aktivlər | (283) | - | (14,283) | (14,566) |
| Silinən aktivlər | - | - | 23,505 | 23,505 |
| Digər kreditlər kimi restrukturizasiya olunmuş məbləğlər | - | - | 191,055 | 191,055 |
| **31 dekabr 2019-cu il tarixinə GKZ ehtiyatı** | **(73,501)** | **(2,230)** | **(178,504)** | **(254,235)** |

31 dekabr 2019-cu il tarixində bitən il ərzində xidmət sektoruna aid kreditlər üzrə ümumi balans dəyərində və müvafiq gözlənilən kredit zərərində olan dəyişikliklərin təhlili aşağıdakı kimidir:

| Müştərilərə verilmiş kreditlər – xidmət | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2019-cu il tarixinə balans dəyəri** | **938,070** | **11,213** | **1,252,429** | **2,201,712** |
| Yeni yaranmış və ya alınmış aktivlər | 2,557,250 | - | - | 2,557,250 |
| Ödənilmiş aktivlər | (1,416,945) | (19,950) | (605,691) | (2,042,586) |
| Birinci mərhələyə köçürmə | 21,045 | - | (21,045) | - |
| İkinci mərhələyə köçürmə | - | 190,281 | (190,281) | - |
| Üçüncü mərhələyə köçürmə | - | - | - | - |
| Bərpa olunan aktivlər | 10,390 | 57,067 | 35,412 | 102,869 |
| Silinən aktivlər | - | - | (24,562) | (24,562) |
| **31 dekabr 2019-cu il tarixinə balans dəyəri** | **2,109,810** | **238,611** | **446,262** | **2,794,683** |

| Müştərilərə verilmiş kreditlər – xidmət | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2019-cu il tarixinə GKZ ehtiyatı** | **-** | **(1,297)** | **(984,858)** | **(986,155)** |
| Yeni yaranmış və ya alınmış aktivlər | (163,766) | - | - | (163,766) |
| Ödənilmiş aktivlər | 1,047 | 1,297 | 477,135 | 479,479 |
| Zərər ehtiyatının yenidən hesablanması | (1,813) | - | 165,955 | 164,142 |
| Birinci mərhələyə köçürmə | - | - | - | - |
| İkinci mərhələyə köçürmə | - | (72,025) | 72,025 | - |
| Üçüncü mərhələyə köçürmə | - | - | - | - |
| Bərpa olunan aktivlər | (124) | - | (20,514) | (20,638) |
| Silinən aktivlər | - | - | 24,562 | 24,562 |
| **31 dekabr 2019-cu il tarixinə GKZ ehtiyatı** | **(164,656)** | **(72,025)** | **(265,695)** | **(502,376)** |

31 dekabr 2019-cu il tarixdə bitən il ərzində digər sektorlara aid kreditlər üzrə ümumi balans dəyərində və müvafiq gözlənilən kredit zərərində olan dəyişikliklərin təhlili aşağıdakı kimidir:

| Müştərilərə verilmiş kreditlər – digər | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2019-cu il tarixinə balans dəyəri** | **168,128** | **1,479** | **270,093** | **439,700** |
| Yeni yaranmış və ya alınmış aktivlər | 1,425,850 | - | - | 1,425,850 |
| Ödənilmiş aktivlər | (508,018) | (33,495) | (79,784) | (621,297) |
| Birinci mərhələyə köçürmə | 7,127 | - | (7,127) | - |
| İkinci mərhələyə köçürmə | - | 917,233 | (917,233) | - |
| Üçüncü mərhələyə köçürmə | - | (425) | 425 | - |
| Bərpa olunan aktivlər | 487 | 196,796 | 659 | 197,942 |
| Silinən aktivlər | - | - | (16,465) | (16,465) |
| Restrukturizasiya olunmuş məbləğlər (kənd təsərrüfatı sektoru) | - | - | 633,733 | 633,733 |
| Restrukturizasiya olunmuş məbləğlər (ticarət sektoru) | - | - | 191,378 | 191,378 |
| **31 dekabr 2019-cu il tarixinə balans dəyəri** | **1,093,574** | **1,081,588** | **75,679** | **2,250,841** |

| Müştərilərə verilmiş kreditlər – digər | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2019-cu il tarixinə GKZ ehtiyatı** | **-** | **(533)** | **(153,526)** | **(154,059)** |
| Yeni yaranmış və ya alınmış aktivlər | (96,515) | - | - | (96,515) |
| Ödənilmiş aktivlər | 799 | 350 | 69,094 | 70,243 |
| Zərər ehtiyatının yenidən hesablanması | (362) | - | 369,340 | 368,978 |
| Birinci mərhələyə köçürmə | - | - | - | - |
| İkinci mərhələyə köçürmə | - | (326,422) | 326,422 | - |
| Üçüncü mərhələyə köçürmə | - | 200 | (200) | - |
| Bərpa olunan aktivlər | - | | (415) | (415) |
| Restrukturizasiya olunmuş məbləğlər (kənd təsərrüfatı sektoru) | - | - | (462,144) | (462,144) |
| Restrukturizasiya olunmuş məbləğlər (ticarət sektoru) | - | - | (191,055) | (191,055) |
| **31 dekabr 2019-cu il tarixinə GKZ ehtiyatı** | **(96,078)** | **(326,405)** | **(42,484)** | **(464,967)** |

28 Fevral 2019-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər" adlı fərman imzalamışdır. Fərmana əsasən, milli valyutanın devalvasiyası nəticəsində xarici valyutada olan kredit borclarındakı 10,000 ABŞ dollarınadək olan artım dövlət tərəfindən kompensasiya edildi. 2019-cu il ərzində yuxarıda qeyd edilmiş fərmana görə Cəmiyyət 2,911,886 AZN məbləğində kompensasiya almışdır.

Fərmanın nəticəsi olaraq, Cəmiyyətin problemli kredit portfelinin vəziyyətini yaxşılaşdırmış və bu, ehtiyatların bərpası ilə nəticələnmişdir.

Verilmiş fərman nəticəsində Cəmiyyətin 15 saylı Qeyddə açıqlanmış 1,103,630 AZN məbləğində silinmiş kreditləri bərpa olunmuşdur.

31 dekabr 2019 və 2018-ci il tarixlərinə qalığı olan bütün kreditlər (müştərilərə verilmiş kreditlərin 100%-i) bölgə üzrə mütləq coğrafi konsentrasiya təşkil edərək, Azərbaycan Respublikasında fəaliyyət göstərən fiziki şəxslərə verilmişdir.

31 dekabr 2019 və 2018-ci il tarixlərinə hər hansı bir borcalan üzrə bütün verilmiş kreditlərin ümumi məbləğinin 1%-ni keçən məbləğdə kredit mövcud olmamışdır. Cəmiyyət əsasən fiziki şəxslərə və fərdi sahibkarlara kiçik məbləğli kreditlər vermişdir.

31 dekabr 2019 və 2018-ci il tarixlərinə müştərilərə verilmiş kreditlərə müvafiq olaraq 56,044 AZN və 54,539 AZN məbləğində hesablanmış faiz gəlirləri daxil edilmişdir.

31 dekabr 2019 və 2018-ci il tarixlərinə kreditlər üzrə maksimal risk müvafiq olaraq 5,594,706 AZN və 4,050,309 AZN təşkil etmişdir.

## 10. ƏMLAK VƏ AVADANLIQLAR

Əmlak və avadanlıqlar aşağıda göstərilmişdir:

| | Tikililər və torpaq | Nəqliyyat vasitələri | Kompüter və avadanlıqlar | Mebel və qurğular | Digər vəsaitlər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Yenidən qiymətləndirilmiş / ilkin dəyəri** | | | | | | |
| **1 yanvar 2018-ci il** | **529,741** | **69,750** | **48,825** | **25,426** | **67,681** | **741,423** |
| Əlavələr | 18,937 | - | 150 | - | - | **19,087** |
| Silinmələr | - | (69,750) | (952) | (240) | (1,440) | (72,382) |
| **31 dekabr 2018-ci il** | **548,678** | - | **48,023** | **25,186** | **66,241** | **688,128** |
| Əlavələr | - | - | - | - | 5,170 | **5,170** |
| Silinmələr | (6,616) | - | (3,018) | (2,336) | (7,652) | **(19,622)** |
| Satış üçün saxlanılan aktivlər kimi yenidən təsnifləşdirmə | (70,800) | | | | | **(70,800)** |
| **31 dekabr 2019-cu il** | **471,262** | - | **45,005** | **22,850** | **63,759** | **602,876** |
| **Yığılmış amortizasiya** | | | | | | |
| **1 yanvar 2018-ci il** | **73,769** | **49,741** | **48,825** | **25,283** | **51,665** | **249,283** |
| İl üzrə tutulma | 14,800 | 2,049 | 150 | 143 | 6,804 | 23,946 |
| Silinmələr | - | (51,790) | (952) | (240) | (1,440) | (54,422) |
| **31 dekabr 2018-ci il** | **88,569** | - | **48,023** | **25,186** | **57,029** | **218,807** |
| İl üzrə tutulma | 41,748 | - | - | - | 4,631 | **46,379** |
| Silinmələr | - | - | (3,018) | (2,336) | (7,595) | **(12,949)** |
| **31 dekabr 2019-cu il** | **130,317** | - | **45,005** | **22,850** | **54,065** | **252,237** |
| **Xalis qalıq dəyəri** | | | | | | |
| **1 yanvar 2018-ci il** | **455,972** | **20,009** | - | **143** | **16,016** | **492,140** |
| **31 dekabr 2018-ci il** | **460,109** | - | - | - | **9,212** | **469,321** |
| **31 dekabr 2019-cu il** | **340,945** | - | - | - | **9,694** | **350,639** |

31 dekabr 2019 və 2018-ci il tarixlərinə, hər hansı bir əmlak və ya avadanlıq alınmış borclar üçün girov olaraq qoyulmamışdır.

## 11. DİGƏR AKTİVLƏR

Digər aktivlər aşağıda göstərilmişdir:

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| **Digər qeyri-maliyyə aktivləri:** | | |
| Əvvəlcədən ödənilmiş vergilər | 57,694 | 76,107 |
| Avans ödənişləri | 41,176 | 13,944 |
| **Cəmi digər aktivlər** | **98,870** | **90,051** |

## 12. BORC ALINMIŞ VƏSAİTLƏR

Borc alınmış vəsaitlər aşağıda göstərilmişdir:

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| Yerli qurumlardan borc alınmış vəsaitlər | 729,045 | - |
| Xarici qurumlardan borc alınmış vəsaitlər | 2,272,299 | 3,963,143 |
| **Cəmi borc alınmış vəsaitlər** | **3,001,344** | **3,963,143** |

31 dekabr 2019 və 2018-ci il tarixlərinə 11,242 AZN və 4,209 AZN məbləğində alınmış borc vəsaitlərinə hesablanmış faiz xərcləri daxil edilmişdir.

5 avqust 2016-cı il tarixində Cəmiyyət kreditorlarla kreditorlararası saziş imzalamışdır. Bu müqaviləyə əsasən bütün kreditlər tam şəkildə hər bir kreditora qaytarılana qədər heç bir kreditor hər hansı borcla bağlı bu saziş imzalanan tarixdən məcburi xarakterli hərəkətlərə yol verməyəcək. Bütün kreditorlar 1 avqust 2016-cı il tarixindən etibarən kreditin faiz dərəcəsini 5%-ə qədər azaltmağa razılıq vermişdir. Borc alınmış bütün vəsaitlər 1 avqust 2016-cı il tarixinə olan valyuta, 1 ABŞ dolları = 0.8948 Avro və 1 ABŞ dolları = 1.5851 AZN, ilə ABŞ dollarına çevrilmişdir. Ödəniş qrafiki də yenidən təyin edilmişdir. Restrukturizasiya dövründə Borcalan öz əməliyyatları üçün yerli və ya beynəlxalq mənbələrdən yeni borc və ya maliyyələşdirmə əldə edə bilərlər. Bu tarixdən sonra müqaviləyə üç əlavə imzalanmışdır. 30 iyun 2017-ci ildə imzalanan Birinci əlavəyə görə, bütün kreditorlar əvvəl razılaşdırılmış faiz ödənişini 1 iyul 2017-ci ildən etibarən 5%-dən 2%-ə endirməyə razılaşır. 28 fevral 2018-ci ildə imzalanmış İkinci əlavəyə görə bütün kreditorlar 1 mart 2018-ci il tarixindən 28 fevral 2019-cu il tarixinədək müvafiq olaraq öz kreditlərinə faiz hesablamaq və faiz ödənişi almaq hüquqlarından imtina edir. 30 iyun 2018-ci il tarixində imzalanmış Üçüncü əlavə kreditlərin əsas məbləğlərinin ödənişi üçün tarixlərin tənzimlənməsi barədə razılaşmadır.

Yerli qurumlardan borc alınmış vəsaitlərə ARMB-dan alınmış kredit daxildir. Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il tarixli fərmanına əsasən, 1 avqust 2019-cu il tarixində Cəmiyyət və ARMB arasında müqavilə imzalandı. Müqavilənin şərtinə əsasən, 1 yanvar 2012-ci il tarixindən Fərmanın imzalandığı tarixədək götürülmüş və 360 gündən çox gecikməsi olan və 10,000 ABŞ Dolları və ya 17,000 AZN qalıq məbləği olan kreditlərin restrukturizasiyası üçün ARMB Cəmiyyətə 0.1%-lə 5 illik, dövlət təminatlı kredit vermişdir. ARMB 922,962 AZN məbləğində ilk tranşı 29 dekabr 2019-cu il tarixində Cəmiyyətə ötürmüşdür. Borc alınmış vəsait maliyyə vəziyyəti haqqında hesabatda banklararası bazarda 5 illik kreditlər üçün faiz dərəcəsi olan 7.18%-i əsas götürməklə amortizasiya edilmiş dəyər metodu ilə tanınmışdır.

## 13. DİGƏR ÖHDƏLİKLƏR

Digər öhdəliklər aşağıda qeyd olunmuşdur:

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| İstifadə edilməmiş məzuniyyətlər üzrə öhdəliklər | 1,510 | 2,956 |
| Yığılmış xərclər | 10,000 | 10,000 |
| DSMF ilə hesablaşmalar | 118 | - |
| **Cəmi digər öhdəliklər** | **11,628** | **12,956** |

## 14. NİZAMNAMƏ KAPİTALI

31 dekabr 2019 və 2018-ci il tarixlərinə nizamnamə kapitalı, hər birinin dəyəri 6,937.74 AZN dəyərində olmaqla, 100 səhmdən ibarət olmuşdur. Cəmiyyətin 100% səhmləri Viator AS-yə (Norveç Krallığı) məxsusdur.

## 15. DİGƏR GƏLİRLƏR, XALİS

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| Silinmiş kreditlərin bərpası | 1,103,630 | - |
| Digər (xərc)/gəlir, xalis | (1,140) | 25,780 |
| **Cəmi digər gəlirlər** | **1,102,490** | **25,780** |

## 16. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

### ARMB-ın tələblərinə uyğunluq

Cəmiyyət Bank olmayan Kredit Təşkilatları və digər normativ aktlar haqqında qanuna uyğun olaraq, ARMB tərəfindən müəyyən olunmuş qayda və tələblərə riayət etməlidir. Cəmiyyət, ARMB tərəfindən 31 dekabr 2019 və 2018-ci il tarixlərinə müəyyən olunmuş qayda və tələblərə riayət etmişdir.

### Kapital qoyuluşları üzrə öhdəliklər

31 dekabr 2019 və 2018-ci il tarixlərinə Cəmiyyətin kapital qoyuluşları və ya xərclər üzrə hər hansı bir mühüm öhdəliyi olmamışdır.

### Məhkəmə prosedurları

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülür. Cəmiyyətin rəhbərliyi hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün heç bir ehtiyat yaradılmamışdır.

### Vergi qanunvericiliyi

Azərbaycan vergi qanunvericiliyindəki müddəalara bəzən müxtəlif şərhlər və dəyişikliklər edilir və bu dəyişikliklər müxtəlif mənalarda şərh edilə bilər və nəticədə Azərbaycan vergi orqanları bu müddəaları özləri hesab etdikləri kimi şərh edə bilərlər. Praktikada, Azərbaycan vergi orqanları belə hallarda adətən vergi ödəyicilərinin əleyhinə qərar çıxarırlar ki, nəticədə vergi ödəyiciləri öz hüquqlarını məhkəmə vasitəsilə müdafiə etməyə məcbur olurlar.

Qeyd etmək lazımdır ki, Azərbaycan vergi orqanları məhkəmə orqanları tərəfindən təqdim edilmiş "haqsız vergi qazancı", "əməliyyatın əsas kommersiya məqsədi" konsepsiyalarından və "əməliyyatın kommersiya mahiyyəti/(məqsədi)" kriteriyasından istifadə edə bilərlər.

Belə qeyri-müəyyənliklər, əsasən maliyyə alətlərinin/derivativlərin və transfer qiymətini təyin etmək məqsədilə əməliyyatın bazar qiymətinin istifadə edilməsi zamanı vergi qanunvericiliyinə uyğun olaraq şərhinə aid edilə bilər. Bu hallar eləcə də kreditlər üzrə ehtiyatların yaradılması zamanı yaranan müvəqqəti fərqlərin və bunun vergi öhdəliyinə təsirinin vergi orqanları tərəfindən mənfəət vergisi bazasının bilərəkdən azaldılması kimi şərh edilməsinə aid edilə bilər. Rəhbərlik əmindir ki, bütün lazımi vergilər hesablanmış, öhdəliklər yaradılmışdır və ona görə də əlavə vergi ehtiyatının yaradılmasına ehtiyac yoxdur.

Ümumiyyətlə, vergi ödəyicilərinin audit tarixindən əvvəlki üç ilə aid maliyyə təsərrüfat fəaliyyəti vergi orqanları tərəfindən yoxlanıla bilər. Bundan əlavə, vergi yoxlamaları başa çatsa belə aparılmış yoxlamaların daha yüksək vergi orqanları tərəfindən yoxlanılması ehtimalı da istisna edilmir.

Həmçinin, Azərbaycan Konstitusiya Məhkəməsinin qərarının müddəalarına əsasən vergi yoxlamasının əhatə etdiyi üç illik limit, məhkəmənin qərarına əsasən vergi ödəyicisinin vergi orqanlarını bilərək yanlış yönləndirdiyi və onlara yanlış yönləndirici məlumatlar verdiyi hallarda uzadıla bilər.

## 17. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ BAĞLI ƏMƏLİYYATLAR

BMUS 24 "Əlaqəli tərəflərlə bağlı qeydlər" standartının tələblərinə əsasən əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Cəmiyyətin birbaşa, dolayısı yolla və ya hər hansı bir üçüncü tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana şirkətlər, törəmə müəssisələr, eyni səviyyədə olan törəmə müəssisələr aiddir); Cəmiyyətin fəaliyyətində marağı və bu fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərmək imkanı olan şəxslər; və Cəmiyyətin fəaliyyətinə ortaq nəzarət həyata keçirən şəxslər;

(b) Assosiasiya edilmiş müəssisələr – Cəmiyyət tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərilə biləcək, lakin törəmə və ya birgə müəssisə olmayan tərəflər;

(c) Cəmiyyətin tərəf kimi çıxış etdiyi birgə müəssisələr;

(d) Cəmiyyətin və ya ana şirkətin idarə heyətinin üzvləri;

(e) (a) və ya (d) bəndlərində göstərilən şəxslərin yaxın ailə üzvləri;

(f) (d) və ya (e) bəndlərində göstərilən şəxslər tərəfindən birbaşa və ya dolayısı yolla səsvermə hüquqlarının əhəmiyyətli hissəsini əlində cəmləşdirən nəzarətdə olan tərəflər, müəssisələr və birgə müəssisələr aiddir; və ya

(g) İş müddəti bitdikdən sonra Cəmiyyətin keçmiş işçiləri və ya Cəmiyyətin əlaqəli olduğu şəxs tərəfindən alınacaq mükafatlar.

Cəmiyyətin siyasətinə müvafiq olaraq işçilərə, Müşahidə Şurasına, onların ailələrinə və yaxın qohumlarına, eləcə də Cəmiyyətin idarəetmə, yoxlama və ya nəzarət etmə işlərinə cəlb olunmuş digər işçilərə kreditlərin verilməsinə icazə verilmir. 31 dekabr 2019 və 2018-ci il tarixlərinə Cəmiyyət və digər əlaqəli tərəflər arasındakı əməliyyatların təfərrüatları aşağıda qeyd edilmişdir:

| | 31 dekabr 2019-cu il | | |
|---|---|---|---|
| | *Normisjon | Viator AS | Əsas idarə heyəti |
| **Balans** | | | |
| Müştərilərə verilmiş kreditlər | - | - | 9,538 |
| Borc alınmış vəsaitlər | 80,396 | - | - |
| **Əməliyyatlar** | | | |
| Faiz gəlirləri | - | - | 974 |
| Faiz xərcləri | 938 | - | - |
| Qeyri-faiz xərcləri | - | - | 211,106 |

| | 31 dekabr 2018-ci il | | |
|---|---|---|---|
| | *Normisjon | Viator AS | Əsas idarə heyəti |
| **Balans** | | | |
| Borc alınmış vəsaitlər | 146,869 | - | - |
| **Əməliyyatlar** | | | |
| Faiz xərcləri | 553 | - | - |
| Qeyri-faiz xərcləri | - | - | 187,841 |

*"Normisjon Region East" və "Normisjon Nordland Eiendom AS" Normisjon şəbəkəsinin ortaq tərəfləri və iki ayrı-ayrı hüquqi şəxslərdir.*

## 18. KAPİTALIN İDARƏ OLUNMASI

Cəmiyyət borc və kapital qalıqlarını optimallaşdıraraq səhmdarların gəlirini artırmaq şərtilə gələcəkdə fəaliyyətinin davamlılıq prinsipinə uyğun olması üçün çalışır.

Cəmiyyət hər hansı tənzimləmə və ya nəzarət orqanı tərəfindən kapital adekvatlığı monitorinqinə tabe deyil. ARMB-nin yeganə tələbi minimum 300,000 AZN həcmində nizamnamə kapitalının olmasıdır.

Cəmiyyətin kapital strukturu kapital dəyişiklikləri haqqında hesabatda qeyd olunan nizamnamə kapitalı, bölüşdürülməmiş mənfəət və yenidən qiymətləndirmə üzrə artımdan ibarətdir.

İdarə Heyəti kapital strukturunu yarım illik əsasda nəzərdən keçirir. Cəmiyyət ümumi kapital strukturunu İdarə Heyətinin tövsiyəsinə əsasən dividendlərin verilməsi və ya yeni səhmlərin buraxılması yolu ilə artırır.

## 19. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

**Amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə alətlərinin ədalətli dəyəri:**

Cəmiyyət müəyyən qiymətləndirmə üsulları ilə maliyyə alətlərinin ədalətli dəyərini açıqlamaq üçün aşağıdakı qiymətləndirmə səviyyələrindən istifadə edir:

- 1-ci səviyyə: Fəal bazarda eyni bir alət üçün aktiv bazar qiymətləri (nizamlanmamış)
- 2-ci səviyyə: Birbaşa (yəni qiymətlər kimi), ya da bilavasitə (yəni qiymətlərdən törəyən) müşahidə oluna bilən, 1-ci səviyyəyə daxil edilmiş kotirovka olunan qiymətdən başqa digər ilkin göstəricilər. Bu kateqoriyaya aşağıdakı amillərdən istifadə etməklə qiymətləndirilən alətlər daxildir: analoji alətlər üçün fəal bazarda tətbiq edilən bazar qiymətləri; analoji alətlər üzrə kifayət qədər fəal hesab olunmayan bazarlarda tətbiq edilən qiymətlər; və ya bütün əhəmiyyətli ilkin göstəricilərin birbaşa, yaxud dolayısı ilə bazar məlumatlarından müşahidə oluna bildiyi sair qiymətləndirmə üsulları.
- 3-cü səviyyə: ilkin göstəricilər müşahidə oluna bilmir. Bu kateqoriyaya aid edilən alətlərin qiymətləndirmə metoduna müşahidə edilə bilən məlumata əsaslanmayan ilkin göstəricilər daxildir və müşahidə edilə bilməyən ilkin göstəricilər həmin alətin qiymətləndirilməsində əhəmiyyətli təsirə malikdir. Bu kateqoriyaya oxşar alətlər üçün kotirovka olunan qiymətlər əsasında qiymətləndirilən alətlər daxildir və bu zaman alətlər arasında fərqi əks etdirmək üçün mühüm müşahidə olunmayan tənzimləmələr və ya mülahizələr tələb olunur

Aşağıdakı cədvəl ədalətli dəyərində ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərinin hər bir ədalətli dəyər ölçülməsinin 31 dekabr 2019-cu il tarixinə təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə əsasında təhlil edir:

| | Səviyyə 1 | Səviyyə 2 | Səviyyə 3 | Cəmi |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,106,947 | - | - | **1,106,947** |
| Müştərilərə verilmiş kreditlər | - | - | 5,594,706 | **5,594,706** |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **1,106,947** | **-** | **5,594,706** | **6,701,653** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Borc alınmış vəsaitlər | - | - | 3,001,344 | **3,001,344** |
| Digər maliyyə öhdəlikləri | - | 10,000 | - | **10,000** |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **-** | **10,000** | **3,001,344** | **3,011,344** |

Aşağıdakı cədvəl ədalətli dəyərində ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərinin hər bir ədalətli dəyər ölçülməsinin 31 dekabr 2018-ci il tarixinə təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə əsasında təhlil edir:

| | Səviyyə 1 | Səviyyə 2 | Səviyyə 3 | Cəmi |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 241,497 | - | - | **241,497** |
| Müştərilərə verilmiş kreditlər | - | - | 4,050,309 | **4,050,309** |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **241,497** | **-** | **4,050,309** | **4,291,806** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Borc alınmış vəsaitlər | - | - | 3,963,143 | **3,963,143** |
| Digər maliyyə öhdəlikləri | - | 10,000 | - | **10,000** |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **-** | **10,000** | **3,963,143** | **3,973,143** |

**Ədalətli dəyəri qalıq dəyərinə yaxın olan aktivlər və öhdəliklər**

Likvid və ya ödəmə dövrü qısamüddətli (üç aydan daha az) olan maliyyə aktivləri və maliyyə öhdəlikləri üzrə hesab edilir ki, qalıq dəyərləri ədalətli dəyərlərinə yaxındır. Bu fərziyyə həmçinin xüsusi ödəmə müddəti və dəyişən dərəcəli maliyyə alətləri olmadan, depozitlərə də tətbiq edilir.

**Sabit və dəyişən dərəcəli maliyyə alətləri**

Fəal bazar qiyməti olan borc alətləri üzrə ədalətli dəyər təyin edilmiş bazar qiymətləri əsasında müəyyən edilir. Fəal bazar qiyməti olmayan borc alətlərinin ədalətli dəyəri, hal-hazırda oxşar şərtlər, kredit riski və qalan ödəmə müddəti üzrə borc üçün mövcud olan dərəcələr istifadə etməklə pul vəsaitlərinin gələcək hərəkəti azaldılmaqla qiymətləndirilir.

## 20. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ

Cəmiyyətin fəaliyyəti üçün risklərin idarə edilməsi əməliyyatların mühüm elementini təşkil edir. Cəmiyyətin əməliyyatlarına təsir göstərəcək əsas risklər aşağıdakılardan ibarətdir:

- Kredit riski
- Likvidlik riski
- Bazar riski

Cəmiyyətin rəhbərliyi anlayır ki, səmərəli risklərin idarə olunması sisteminə malik olmaq vacib şərtdir. Bu məqsədlə, Cəmiyyət rəhbərliyi risk idarəetmə qrupu yaratmışdır. Bu qrupun əsas məqsədi Cəmiyyəti ehtimal edilən risklərə qarşı qorumaq və ona qarşıda qoyulan hədəflərə çatmaq imkanı yaratmaqdır. Risklərin idarə olunması qrupu vasitəsilə Cəmiyyətin rəhbərliyi, aşağıdakı risklərin idarə olunmasına nəzarət edir:

## Kredit riski

Maliyyə aləti üzrə əməliyyat aparan bir tərəf öz öhdəliyini yerinə yetirməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurduqda, Cəmiyyət kredit riskinə məruz qalır. Kredit riski Cəmiyyətin qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır.

Cəmiyyət hesab edir ki, kredit riskini aşağıdakı konsepsiya qiymətləndirir:

GKZ hesablamalarının mexanizmi aşağıdakı təsvir olunur və əsas elementləri bunlardır:

| | |
|---|---|
| DE | Defolt ehtimalı müəyyən vaxt civarında defoltun mümkünlüyünün qiymətləndirilməsidir. Defolt, təhlil edilən müddət ərzində müəyyən anda yalnız müvafiq vəsait daha əvvəl uçotdan çıxarılmamış və hələ də portfelə daxil olanda yarana bilər. |
| DHRH | Defolt halında riskin həcmi, müqavilədə nəzərdə tutulub-tutulmamasından asılı olmayaraq, əsas və faiz məbləğlərinin qaytarılması, kredit öhdəliyi üzrə gözlənilən vəsaitlərin istifadəsi və yerinə yetirilməmiş ödənişlər üzrə hesablanmış faiz də daxil olmaqla hesabat tarixindən sonra risk həcmində gözlənilən dəyişikliyi nəzərə almaqla gələcək defolt tarixində risk həcminin qiymətləndirilməsidir. |
| DHZ | Defolt halında zərər müəyyən zaman defolt yarananda əmələ gələn zərərin qiymətləndirilməsidir. Bu, müqavilə ilə nəzərdə tutulmuş ödəniləcək pul vəsaitləri ilə kreditorun əldə etməyi gözlədiyi pul vəsaitləri arasındakı fərqə əsaslanır. Bu, adətən DHZ faizi kimi ifadə edilir. |

Özünün GKZ modellərində Cəmiyyət geniş miqyaslı proqnoz məlumatlarına, məsələn kredit riski komponentlərin qiymətləndirmələrinə inteqrasiya olunmuş iqtisadi göstəricilərə əsaslanır. Dəyərsizləşmə zərərləri və azadetmələr maliyyə aktivinin ümumi balans dəyərinə düzəliş kimi uçota alınan modifikasiya zərərlərindən ayrı olaraq uçota alınır və acıqlanır.

Cəmiyyət hesab edir ki, ilkin tanımadan sonra kredit reytinqi əhəmiyyətli dərəcədə pisləşdikdə kredit riski əhəmiyyətli dərəcədə artmışdır. Əhəmiyyətli pisləşmə səviyyəsi seqmentdən seqmentə fərqlənir və 2-ci və 3-cü pillə arasında və ya müəyyən edilmiş litim daxilində dəyişir. Cəmiyyət həmçinin aktiv üzrə kredit riskinin əhəmiyyətli artmasına təkan vermək üçün 2-ci dərəcəli keyfiyyət metodunu tətbiq edir, məsələn müştərinin / obyektin müşahidə siyahısına daxil edilməsi və ya hesabın saxlanması. Kredit reytinqinin dəyişməsindən asılı olmayaraq müqavilə ödənişləri 30 gündən artıqdırsa, kredit riski ilkin tanıma anından etibarən əhəmiyyətli artmış hesab olunur.

Borcalan müqavilə şərtlərindən asılı olaraq müqavilə ödənişlərini 90 gün gecikdirərsə, Cəmiyyət maliyyə alətinin defolt olduğunu və buna görə də GKZ hesablamaları üçün Mərhələ 3-ün (kredit üzrə dəyərsizləşmə) əmələ gəldiyini hesab edir. Cəmiyyət gün ərzində tələb olunan ödənişlər fərdi müqavilələrdə göstərildiyi kimi iş gününün bağlanması səbəbi ilə ödənilməyəndə kassa və banklararası qalıqlarını defolt hesab edir və dərhal tədbirlər görür. Müştərinin defolt vəziyyətində olub-olmamasını keyfiyyət baxımından qiymətləndirilməsi çərçivəsində

Cəmiyyət GKZ-ni AYKD aktivləri, kreditin dəyərsizləşməsi amilləri olan əhəmiyyətli aktivlər və kredit riskinin əhəmiyyətli artması amilləri olan müəyyən aktivlər üçün fərdi əsasla hesablayır. Cəmiyyət bütün digər siniflərdən olan aktivləri homogen borcalanlar qruplarına GKZ-ni kreditlərin daxili və xarici xüsusiyyətlərinin birləşməsi əsasında məcmu şəkildə hesablayır

GKZ ehtiyatı aktivin müddəti ərzində yaranması gözlənilən kredit zərərlərinə əsaslanır. Lakin əmələ gəldiyi andan kredit riskində əhəmiyyətli artım olmadığı hallarda ehtiyat 12 aylıq gözlənilən kredit zərərinə

əsaslanır. 12aGKZ hesabat tarixindən sonra 12 ay ərzində mümkün olan maliyyə alətləri ilə bağlı öhdəliklərin yerinə yetirilməməsindən irəli gələn GKZ-dən ibarətdir.

Hər hesabat dövrünün sonunda Cəmiyyət, maliyyə alətinin qalan müddəti üzrə öhdəliklərin yerinə yetirilməməsi riskindəki dəyişiklikləri nəzərdən keçirməklə, maliyyə aləti üzrə kredit riskinin ilkin tanınmadan sonra əhəmiyyətli artıb-artmamasının qiymətləndirilməsi siyasətini tətbiq etmişdir. Yuxarıdakı prosesə əsaslanaraq, Cəmiyyət kreditləri aşağıdakı kimi qruplaşdırılır:

| | |
|---|---|
| Mərhələ 1: | İlk tanınandan bəri kredit riskində artım göstəriciləri olmayan kreditlər. Faiz gəliri məcmu məbləğə hesablanır. Ehtiyatlar 12 aylıq GKZ üzərindən ölçülür. |
| Mərhələ 2: | Kredit riskində əhəmiyyətli artım olmuş kreditlər. Faiz gəliri məcmu məbləğə hesablanır. Ehtiyat ömürlük GKZ üzərindən ölçülür. |
| Mərhələ 3: | Əhəmiyyətli riskə sahib dəyərsizləşmiş hesab olunan kreditlər. Faiz gəliri xalis məbləğə hesablanır. Ehtiyat ömürlük GKZ üzərindən ölçülür. |
| AYKD: | Alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri (AYKD) ilkin tanınma zamanı kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləridir. AYKD aktivləri ilkin tanınmada ədalətli dəyərlə qeydə alınır və faiz gəliri sonradan krediti nəzərə almaqla düzəliş edilmiş EFD əsasında tanınır. GKZ yalnız gözlənilən kredit zərərlərində sonradan dəyişiklik baş verəndə tanınır və ya ləğv edilir. |

**Maksimal risk**

Cəmiyyətin məruz qaldığı maksimal kredit riski fərdi risklərdən və ümumi iqtisadiyyatın daşıdığı risklərdən asılı olaraq əhəmiyyətli dərəcədə fərqlənir.

Aşağıdakı cədvəl maliyyə aktivlərinin və öhdəliklərinin risklərə məruz qalmasının maksimal həddini təqdim edir. Maliyyə aktivləri üçün bu məbləğ əvəzləşdirmələr və mövcud girovlar çıxıldıqdan sonra aktivlərin qalıq dəyərinə bərabərdir. Maliyyə qarantiyaları və digər şərti təəhhüdlər üçün kredit riskinə məruz qalmanın maksimal həddi, bu qarantiyalar üzrə üçüncü şəxslərə ödənilməli olan mütləq məbləğlər, kredit öhdəliklərində isə müştəri tərəfindən tələb edilən vəsaitlərin məbləği kimi təyin edilir.

| | | **31 dekabr 2019-cu il** | |
|---|---|---|---|
| | **Kredit riskinə maksimal məruzqalma həddi** | **Likvid aktivlərlə təmin edilmiş** | **Alınmış təminatlardan sonra xalis risk** |
| Müştərilərə verilmiş kreditlər | 5,594,706 | 3,305,020 | 2,289,686 |

| | | **31 dekabr 2018-ci il** | |
|---|---|---|---|
| | **Kredit riskinə maksimal məruzqalma həddi** | **Likvid aktivlərlə təmin edilmiş** | **Alınmış təminatlardan sonra xalis risk** |
| Müştərilərə verilmiş kreditlər | 4,050,309 | 1,393,904 | 2,656,405 |

**Coğrafi konsentrasiya**

Rəhbərlik həmçinin qanunvericilik və tənzimləmə sahəsindəki risklərin idarə edilməsinə və bu risklərin Cəmiyyətin fəaliyyətinə təsirinə nəzarət edir. Bu nəzarət mexanizmi Cəmiyyətə Azərbaycan Respublikasındakı investisiya mühitinin dəyişməsindən yaranan ehtimal edilən zərərləri minimal həddə salmağa şərait yaradır. Aktiv və öhdəliklərin coğrafi konsentrasiyası aşağıdakı cədvəldə göstərilir:

| | Azərbaycan Respublikası | İƏİT ölkələri | 31 dekabr 2019-cu il Cəmi |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,106,947 | - | 1,106,947 |
| Müştərilərə verilmiş kreditlər | 5,594,706 | - | 5,594,706 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **6,701,653** | - | **6,701,653** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Borc alınmış vəsaitlər | 729,045 | 2,272,299 | 3,001,344 |
| Digər maliyyə öhdəlikləri | 10,000 | - | 10,000 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **739,045** | **2,272,299** | **3,011,344** |
| **XALİS MÖVQE** | **5,962,608** | **(2,272,299)** | **3,690,309** |

| | Azərbaycan Respublikası | İƏİT ölkələri | 31 dekabr 2018-ci il Cəmi |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 241,497 | - | **241,497** |
| Müştərilərə verilmiş kreditlər | 4,050,309 | - | **4,050,309** |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **4,291,806** | - | **4,291,806** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Borc alınmış vəsaitlər | - | 3,963,143 | **3,963,143** |
| Digər maliyyə öhdəlikləri | 10,000 | - | **10,000** |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **10,000** | **3,963,143** | **3,973,143** |
| **XALİS MÖVQE** | **4,281,806** | **(3,963,143)** | **318,663** |

**Likvidlik riski**

Likvidlik və faiz dərəcəsi riskləri üzrə təhlillər aşağıdakı cədvəldə qeyd olunur. Cədvəllər aşağıdakı məqamları əks etdirir:

| | Orta çəkili effektiv faiz dərəcəsi | 1 aya qədər | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 5 ildən çox | 31 dekabr 2019-cu il Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | | |
| Müştərilərə verilmiş kreditlər | 33% | 443,899 | 832,877 | 1,547,355 | 2,770,575 | - | 5,594,706 |
| **Cəmi faiz gəliri yaradan aktivlər** | | **443,899** | **832,877** | **1,547,355** | **2,770,575** | - | **5,594,706** |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 1,106,947 | - | - | - | - | 1,106,947 |
| **Cəmi maliyyə aktivləri** | | **1,550,846** | **832,877** | **1,547,355** | **2,770,575** | - | **6,701,653** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | | |
| Borc alınmış vəsaitlər | 1.41% | 13,869 | 121,689 | 701,768 | 2,164,018 | - | 3,001,344 |
| **Cəmi faiz gəliri yaradan öhdəliklər** | | **13,869** | **121,689** | **701,768** | **2,164,018** | - | **3,001,344** |
| Digər maliyyə öhdəlikləri | | - | 10,000 | - | - | - | 10,000 |
| **Cəmi maliyyə öhdəlikləri** | | **13,869** | **131,689** | **701,768** | **2,164,018** | - | **3,011,344** |
| Likvidlik boşluğu | | **1,536,977** | **701,188** | **845,587** | **606,557** | - | |
| Faiz dərəcəsi boşluğu | | **430,030** | **711,188** | **845,587** | **606,557** | - | |
| **Məcmu faiz dərəcəsi boşluğu** | | **430,030** | **1,141,218** | **1,986,805** | **2,593,362** | **2,593,362** | |

**BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKRO MALİYYƏ AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT**

**MALİYYƏ HESABATLARI ÜZRƏ QEYDLƏR**
**31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Orta çəkili effektiv faiz dərəcəsi | 1 aya qədər | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 5 ildən çox | 31 dekabr 2018-ci il Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | | |
| Müştərilərə verilmiş kreditlər | 32.24% | 69,300 | 149,400 | 1,451,400 | 2,380,209 | - | 4,050,309 |
| **Cəmi faiz gəliri yaradan aktivlər** | | **69,300** | **149,400** | **1,451,400** | **2,380,209** | - | **4,050,309** |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 241,497 | - | - | - | - | 241,497 |
| **Cəmi maliyyə aktivləri** | | **310,797** | **149,400** | **1,451,400** | **2,380,209** | - | **4,291,806** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | | |
| Borc alınmış vəsaitlər | 0.33% | - | - | 3,963,143 | - | - | 3,963,143 |
| **Cəmi faiz gəliri yaradan öhdəliklər** | | - | - | **3,963,143** | - | - | **3,963,143** |
| Digər maliyyə öhdəlikləri | | 10,000 | - | - | - | - | 10,000 |
| **Cəmi maliyyə öhdəlikləri** | | **10,000** | - | **3,963,143** | - | - | **3,973,143** |
| Likvidlik boşluğu | | 300,797 | 149,400 | (2,511,743) | 2,380,209 | - | |
| Faiz dərəcəsi boşluğu | | 69,300 | 149,400 | (2,511,743) | 2,380,209 | - | |
| **Məcmu faiz dərəcəsi boşluğu** | | 69,300 | 218,700 | (2,293,043) | 87,166 | 87,166 | |

**Bazar riski**

Bazar riskinə faiz dərəcəsində, xarici valyuta məzənnələrində və qiymətləndirmədəki dəyişmələrdən yaranan və Cəmiyyətin məruz qaldığı risklər aiddir. Cəmiyyət cari dəyişmələr, maliyyə bazarları və ümumilikdə iqtisadi vəziyyət üzrə təhlil aparmaqla risklərə nəzarət edir.

**Faiz dərəcəsi riski**

Aşağıdakı cədvəl "risk göstəricisinin ehtimal edilən mümkün dəyişməsi" üsulu ilə hesablanmış və faizlərin dəyişməsinə Cəmiyyətin həssaslığını təqdim edir. Bu dəyişikliklərin həddi rəhbərlik tərəfindən təyin edilir və onlara təqdim edilən risk hesabatlarında öz əksini tapır.

**Mənfəət vergisindən əvvəlki (zərər)/mənfəətə təsiri:**

| | 31 dekabr 2019-cu il tarixinə Faiz dərəcəsi +1% | 31 dekabr 2019-cu il tarixinə Faiz dərəcəsi -1% | 31 dekabr 2018-ci il tarixinə Faiz dərəcəsi +1% | 31 dekabr 2018-ci il tarixinə Faiz dərəcəsi -1% |
|---|---|---|---|---|
| **Maliyyə aktivləri:** | | | | |
| Müştərilərə verilmiş kreditlər | 55,947 | (55,947) | 40,503 | (40,503) |
| **Maliyyə öhdəlikləri:** | | | | |
| Borc alınmış vəsaitlər | (30,013) | 30,013 | (39,631) | 39,631 |
| **Mənfəət vergisindən əvvəlki zərərə xalis təsiri** | **25,934** | **(25,934)** | **872** | **(872)** |

**Xarici valyuta riski**

Məzənnə fərqlərindən asılı olaraq maliyyə alətinin dəyərindəki dəyişmələr xarici valyuta riski adlanır. Cəmiyyətin maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti mövcud valyuta məzənnələrinin dəyişməsi zamanı belə risklərin təsirinə məruz qalır.

Cəmiyyətin xarici valyuta məzənnələrinin dəyişməsi zamanı məruz qalacağı risklər aşağıdakı cədvəldə təqdim edilmişdir:

| | AZN | ABŞ dolları | Avro | 31 dekabr 2019-cu il Cəmi |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,002,779 | 103,809 | 359 | 1,106,947 |
| Müştərilərə verilmiş kreditlər | 5,121,914 | 472,792 | - | 5,594,706 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **6,124,693** | **576,601** | **359** | **6,701,653** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Borc alınmış vəsaitlər | 729,045 | 2,272,299 | - | 3,001,344 |
| Digər maliyyə öhdəlikləri | 10,000 | - | - | 10,000 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **739,045** | **2,272,299** | - | **3,011,344** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **5,385,648** | **(1,695,698)** | **359** | **3,690,309** |

| | AZN | ABŞ dolları | Avro | 31 dekabr 2018-ci il Cəmi |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 68,014 | 173,115 | 368 | 241,497 |
| Müştərilərə verilmiş kreditlər | 2,964,199 | 1,086,110 | - | 4,050,309 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **3,032,213** | **1,259,225** | **368** | **4,291,806** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Borc alınmış vəsaitlər | - | 3,963,143 | - | 3,963,143 |
| Digər maliyyə öhdəlikləri | 10,000 | - | - | 10,000 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **10,000** | **3,963,143** | **-** | **3,973,143** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **3,022,213** | **(2,703,918)** | **368** | **318,663** |

**Xarici valyuta riskinə həssaslıq**

Aşağıdakı cədvəl Cəmiyyətin ABŞ dollarının və Avronun Azərbaycan manatına nisbətən məzənnəsində 10%-lik artım və ya azalmasına həssaslığını təhlil edir. 10% rəhbərlik tərəfindən xarici valyuta risklərini təhlil edərkən daxili risk hesabatlarında istifadə olunan həssaslıq dərəcəsidir və xarici valyuta məzənnəsinin dəyişməsinin Cəmiyyətə təsirini təhlil rəhbərlik tərəfindən istifadə olunur.

Həssaslıq təhlili xarici valyutada olan monetar aktiv və öhdəliklərin hesabat tarixinə qalıq dəyərindən istifadə edir və bu dəyəri məzənnədəki 10%-lik dəyişiklik üçün uyğunlaşdırır. Əgər xarici ölkələrdə yerləşən müştərilərə verilmiş kreditlər və xaricdəki əməliyyatlar üzrə verilmiş kreditlər borc verənin və ya borc alanın valyutasında deyilsə bu məbləğlər də həssaslıq təhlilinə daxil edilir.

| | 31 dekabr 2019-cu il tarixinə AZN/USD +10% | 31 dekabr 2019-cu il tarixinə AZN/USD -10% | 31 dekabr 2018-ci il tarixinə AZN/USD +10% | 31 dekabr 2018-ci il tarixinə AZN/USD -10% |
|---|---|---|---|---|
| Vergidən əvvəl zərərə xalis təsir | (169,570) | 169,570 | (270,392) | 270,392 |

| | 31 dekabr 2019-cu il tarixinə AZN/EUR +10% | 31 dekabr 2019-cu il tarixinə AZN/EUR -10% | 31 dekabr 2018-ci il tarixinə AZN/EUR +10% | 31 dekabr 2018-ci il tarixinə AZN/EUR -10% |
|---|---|---|---|---|
| Vergidən əvvəl zərərə xalis təsir | 36 | (36) | 37 | (37) |

**Qiymət riski**

Qiymət riski bazar qiymətlərinin dəyişməsi nəticəsində bu dəyişikliklərin konkret qiymətli kağıza və ya onu yerləşdirən tərəfə məxsus amillərdən və ya bazarda alınıb-satılan bütün qiymətli kağızlara təsir göstərən amillərdən asılı olaraq maliyyə alətinin dəyərinin dəyişməsi ilə əlaqədar riskdir. Cəmiyyət ümumi və ya xüsusi bazar dəyişmələrindən yaranan qiymət risklərinə məruz qalır.

**Həssaslıq təhlilinin məhdudiyyətləri**

Əvvəlki cədvəllərdə qeyd olunan təsirlər yalnız bir təxminin dəyişməsini və bu zaman digər təxminlərin sabit qaldığını nəzərdə tutur. Reallıqda isə, təxminlər və digər faktorlar arasında korrelyasiya mövcuddur.

O da qeyd edilməlidir ki, bu həssaslıq münasibətləri xətti şəkildə deyil və bu nəticələri daha böyük və ya daha kiçik təsirləri ölçmək üçün interpolyasiya və ya ekstrapolyasiya etmək olmaz.

Həmçinin, həssaslıq təhlilində Cəmiyyətin aktiv və öhdəliklərini mütəmadi olaraq idarə etməsi nəzərə alınmır. Əlavə olaraq, Cəmiyyətin maliyyə vəziyyəti istənilən zaman faktiki bazar dəyişmələrinin nəticəsində dəyişə bilər. Məsələn, Cəmiyyətin maliyyə risklərinin idarə olunması strategiyası, bazardakı dəyişikliklərdən yaranan risklərə qarşı Cəmiyyəti qorumağı qarşısına məqsəd qoyur. İnvestisiya bazarlarında müşayiət edilən düşmələr zamanı qiymətlər müəyyən həddin altına düşdükdə, rəhbərlik investisiyaların satılmasına, investisiya portfelinin strukturunun dəyişdirilməsinə qərar verə bilər və ya

digər qoruyucu qərarlar qəbul edə bilər. Nəticədə, aktivlər bazar dəyəri ilə göstərildiyinə görə, təxminlərdə baş verən dəyişikliklər öhdəliklərə faktiki təsir göstərməyə bilər. Bu kimi hallarda öhdəlik və aktivlərin ölçülməsində istifadə edilən müxtəlif üsullar kapitalda böyük dəyişikliklər yarada bilər.

Yuxarıda göstərilən həssaslıq təhlilinin digər məhdudiyyətlərindən biri Cəmiyyətin təxminlərinə görə ehtimal edilən riskləri təqdim etmək məqsədilə yalnız qısa müddətdə bazar dəyişmələri ilə əlaqədar proqnozlaşdırılması çətin olan fərziyyələrdən istifadə etməsidir; bu zaman təxmin edilir ki, bütün faiz dərəcələri eyni qaydada və istiqamətdə dəyişir.

## 21. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Aşağıdakı əhəmiyyətli hadisə hesabat dövründən sonra baş vermişdir:

2020-ci ilin ilk ayında koronavirus (COVID-19) pandemiyasının nəticəsində dünya bazarlarında kəskin dalğalanmalar müşahidə edildi. Bu vəziyyət digər amillərlə bərabər enerji istehlakında azalmaya, neft qiymətlərində ucuzlaşmaya, dünya iqtisadi fəaliyyətində kiçilməyə, dünya bazarlarında valyutaların devalvasiyasına və Azərbaycan manatına qarşı təzyiqlər yaranmasına səbəb olmuşdur. Qeyd edilmiş hadisələr obyektiv şəkildə iqtisadiyyatda qeyri-müəyyənliyin səviyyəsini artırır və növbəti dövrdə Şirkətin maliyyə nəticələrinə mənfi təsir göstərə bilər.